Biblioqrafiya

ŞUŞA - AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI

*Şuşanın erməni işğalından azad edilməsinə həsr olunur*

# ŞUŞA

## Azərbaycanın mədəniyyət paytaxtı

### Biblioqrafiya



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Şuşanın erməni işğalından azad edilməsinə həsr olunur*

# ŞUŞA

## Azərbaycanın mədəniyyət paytaxtı

*Biblioqrafiya*

**BAKI - 2021**

**KBT:** Я19:T3(2A)4-22я1
**UOT:** 94(479.24)

**Elmi redaktor:** **Kərim Tahirov,**
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Elnur Nəciyev**

**Tərtib edən:** **Xeyransa Abbasova**

**Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya / Tərt. ed. X.Abbasova; elmi red. K.M.Tahirov; red. E.R.Nəciyev. – Bakı, 2021. – 600 s.**

Azərbaycan Milli Kitabxanasının hazırladığı “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” adlı biblioqrafiya Şuşaya həsr olunmuş ilk fundamental biblioqrafiyadır. Şuşanın işğaldan azad edilməsi bir illiyi münasibətilə tərtib olunmuş biblioqrafiyada Şuşanın tarixi, mədəniyyəti, musiqisi və ədəbi mühiti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı haqqında kitablar, dövri mətbuatda, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Kitabda Şuşa haqqında digər xarici dillərdə dərc olunan materiallar, habelə dünya milli və universitet kitabxanalarında mühafizə olunan ədəbiyyatlar ayrıca bölmələrdə verilmişdir.

Biblioqrafiya tarixçilər, politoloqlar, elmi tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 542 88 2

**© Azərbaycan Milli Kitabxanası, 2021**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AMK
Azərbaycan
Milli Kitabxanası

*Посвящается освобождению г.Шуша от армянской оккупации*

# ШУША

## Культурная столица Азербайджана

*Библиография*

**БАКУ - 2021**

**KBT:** Я19:Т3(2А)4-22я1
**UOT:** 94(479.24)

**Научный редактор:** **Керим Тахиров,**
*Профессор,*
*Заслуженный работник культуры*

**Редактор:** **Эльнур Наджиев**

**Составитель:** **Хейранса Аббасова**

**Шуша – культурная столица Азербайджана: библиография / Сост. Х.Аббасова; науч.ред. К.М.Тахиров; ред. Э.Р.Наджиев. – Баку, 2021. – 600 с.**

Подготовленная Азербайджанской Национальной Библиотекой библиография «Шуша – культурная столица Азербайджана» является первой фундаментальной библиографией, посвященной Шуше. В библиографию, составленную по случаю освобождения Шушы от оккупации, включена литература по истории, культуре, историческим и архитектурным памятникам, общественно-политической жизни. Это обширные фактические материалы из книг, периодической печати, учебников, сборников. В книге в отдельных разделах отражены материалы о Шуше на иностранных языках, а также литература из национальных и университетских библиотек.

Библиография предназначена для историков, политологов, научных работников и широкой читательской аудитории.

ISBN 978 9952 542 88 2

**© Национальная Библиотека Азербайджана, 2021**

## Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də

Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə qərara alıram:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 may 2021-ci il

# Распоряжение Президента Азербайджанской Республики об объявлении города Шуша культурной столицей Азербайджана

Город Шуша исторически был одним из важных центров историко-культурной, общественно-политической жизни Азербайджана. В 1977 году по инициативе общенационального лидера нашего народа Гейдара Алиева было принято постановление «Об объявлении исторической части города Шуша историко-архитектурным заповедником». В результате этого постановления были предприняты важные шаги по охране памятников в Шуше, увековечению памяти выдающихся деятелей культуры и искусства.

В результате развязанной военной агрессии против Азербайджана 8 мая 1992 года Республика Армения оккупировала город Шуша и осуществила политику уничтожения историко-культурного наследия нашего народа в городе.

Благодаря решительной борьбе нашей армии историческая справедливость была восстановлена, и 8 ноября 2020 года город Шуша был освобожден от оккупации. Безотлагательно была проведена инвентаризация ущерба, нанесенного городу, его историко-культурному наследию и природе, начаты восстановительные работы. Для обеспечения оперативности и эффективности в организации восстановительно-созидательных работ большое внимание было уделено и государственному управлению в Шуше. Первый специальный представитель Президента Азербайджанской Республики на освобожденных от оккупации территориях был назначен именно в Шушинский район.

Историко-культурное значение и исключительная духовная ценность города Шуша для азербайджанского народа диктуют необходимость отношения к нему с особой заботой и чуткостью. С этой точки зрения дальнейшее совершенствование государственного управления и правового

регулирования в Шуше не только послужит восстановлению и сохранению историко-культурного наследия в городе, но и создаст условия для его постоянного развития.

Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях восстановления исторического облика города Шуша, возвращения его былой славы и возобновления содержательной культурной жизни, а также пропаганды на международной арене как яркой жемчужины многовековой богатой культуры Азербайджана, его архитектурного и градостроительного искусства постановляю:

1.Объявить город Шуша культурной столицей Азербайджана.

2.Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам Алиев,**
Президент Азербайджанской Республики
город Баку, 7 мая 2021 года.

## Göstərici haqqında

*"İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!...."* – bu sözləri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində demişdir.

2020-ci il 8 noyabr Azərbaycan xalqının tarixinə "Zəfər günü" kimi daxil oldu.

Şuşa şəhəri azad edildikdən sonra 2021-ci il may ayının 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu möhtərəm prezidentimizin işğalçılardan azad edilmiş Şuşaya həsr edilmiş ilk sərəncamıdır.

Azərbaycan Milli Kitabxanasının hazırladığı "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı" adlı biblioqrafiya Şuşaya həsr olunmuş ilk fundamental biblioqrafiyadır. Şuşanın işğaldan azad olunması münasibətilə tərtib olunmuş biblioqrafiyada Şuşanın tarixi: "Ermənilərin Şuşa şəhərində həyata keçirdikləri soyqırımlar tarixi mənbələrdə (1905-1989)", "Şuşanın erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi (1990-2020)", "Şuşa Sən Azadsan!", "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşaya səfərləri, Şuşanın mədəniyyəti, tarixi və memarlıq abidələri, ictimai-siyasi həyatı, ədəbiyyatı, görkəmli şəxsiyyətləri haqqında kitablarda, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş zəngin materiallar öz əksini tapmışdır. Göstəricidəki materiallar 1876-2021-ci illəri əhatə edir.

Biblioqrafiyada Şuşa haqqında digər xarici dillərdə olan materiallar, eləcə də dünya milli və universitet kitabxanalarında saxlanılan ədəbiyyat ayrıca bölmələrdə verilmişdir.

Materiallar Azərbaycan, rus və başqa dillər üzrə verilmişdir. Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir.

Göstəricinin istifadəsini asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda Şuşa haqqında kitabların, məqalələrin adlar göstəricisi, Şuşa haqqında yazan müəlliflərin əlifba göstəricələri verilmişdir.

Bibloqrafiya haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ – 1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.

**E–mail:** contact@anl.az.

# Об указателе

*«Родная Шуша, ты была оккупирована двадцать восемь с половиной лет. И теперь ты освобождена! Дорогая Шуша, ты свободна! Мы вернулись! Мы одержали эту историческую победу в честном бою, на поле битвы. 8 ноября 2020 года навсегда в истории Азербайджана, в памяти народа! Это день нашей Великой Победы!»* – это слова из обращения к народу Президента Азербайджанской Республики Главнокомандующего Ильхама Алиева.

Дата 8 ноября 2020 года вписана в историю азербайджанского народа как «День Победы».

7 мая 2021 года Президент Азербайджанской Республики Ильхам Алиев подписал распоряжение «Об объявлении города Шуша культурной столицей Азербайджана». Это первое распоряжение нашего глубокоуважаемого Президента, посвященное освобожденной Шуше.

Подготовленная Азербайджанской Национальной Библиотекой Азербайджана библиография «Шуша – культурная столица Азербайджана» является первой фундаментальной библиографией, посвященной Шуше. В библиографии, посвященной освобождению г.Шушы нашли отражение книги по истории города: «Геноцид, совершенная армянами в Шуше: документальные источники (1905-1989)», «Оккупация г.Шушы армянскими военными формированиями (1990-2020), «Шуша, ты свободна», Визиты Президента Азербайджанской Республики Ильхама Алиева в Шушу и др. Также в указатель включены материалы из книг, периодической печати, учебников, сборников по истории, культуре, искусству, общественно-политической и литературной жизни г.Шушы, ее знаменитых деятелях. Материалы в указателе охватывают 1876-2021 годы.

Другие источники на иностранных языках о Шуше, а также литература из национальных и университетстких библиотек мира представлена в библиографии в специальных разделах.

Указатель отражает материалы на азербайджанском, русском и других языках. Литература в указателе представлена в хронологическом порядке, внутри же соблюдается алфавитный порядок.

Для облегчения работы с указателем в конце библиографии представлен именной указатель книг и статей и алфавитный указатель авторов, писавших о Шуше.

Заранее благодарим экспертов и читателей за пожелания и предложения по поводу указателя и просим направлять их по адресу Азербайджанской Национальной Библиотеки им.М.Ф.Ахундова.

**Адрес:** AZ–1000, гор.Баку, ул.Хагани, 57.

**E–mail:** contact@anl.az.

# Əziz Şuşa, biz qayıtmışıq, sən azadsan! Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti

*– Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!*

*Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.*

*İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!*

*Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa*

*edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.*

*Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət apararaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şər-böhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.*

*Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qət-*

*naməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.*

*Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.*

*Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.*

*Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir.*

*Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!*

*Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.*

*Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.*

*Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya, istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!*

*Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.*

*Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidləri-*

*mizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!*

*Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!*

*Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!*

*Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.*

*Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.*

*Əziz Şuşa, sən azadsan!*

*Əziz Şuşa, biz qayıtmışıq!*

*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*

*Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!*

***Şəhidlər xiyabanı,***
***8 noyabr 2020***

# Azərbaycan-Türkiyə: dostluğun, qardaşlığın, birliyin təntənəsi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi

Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək,

9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək,

Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək,

bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək

Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır.

Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.

Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər.

Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyə-

tinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut şaxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb / Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasın-

da davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

**Bəyannaməni imzalayıblar:**
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,
Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan

## Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin tarixi ilə bağlı hadisələrinin xronologiyası

**1750** – Görkəmli siyasi və dövlət xadimi Pənahəli xan Cavanşir tərəfindən Şuşa şəhərinin əsası qoyulmuşdur.

**1756-1757** – Sıldırım dağ üzərində Şuşa qalası tikilib başa çatdırılmışdır.

**1783/1784** – Şəhərin ətrafında daha möhkəm, uzunluğu 2,5 km olan qala divarlarının tikintisi başlanmış və üç il ərzində başa çatdırılmışdır.

**1795** – İyul ayında Ağa Məhəmməd şah Qacar Qarabağa – Şuşaya birinci dəfə hücum etmişdir və Şuşa qalasını 33 gün mühasirədə saxladıqdan sonra şəhərə daxil ola bilməyərək geri dönmüşdür.

**1797** – Bu ilin baharında Ağa Məhəmməd şah Qacar Qarabağa – Şuşaya ikinci dəfə hücum etmişdir.

**1807** – Şuşada ilk dövlət məktəbi təsis edilmişdir.

**1830** – 30 dekabrda Azərbaycanda dünyəvi təhsil verən ilk qəza məktəbi – Şuşa Qəza Məktəbi fəaliyyətə başlamışdır.

**1840** – İnzibati-ərazi islahatı nəticəsində Qarabağ əyaləti mərkəzi Şuşa şəhəri olmaqla Şuşa qəzası adlandırılmış və Kaspi vilayətinin tərkibinə daxil edilmişdir.

**1843** – 21 mayda Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur. Gerbin ikiyə bölünmüş qalxanvari lövhəsinin yarıdan yuxarı hissəsidə pələng və yerdən çıxıb alovlanan qaz dilimləri təsvir olunmuş, gerbin yarıdan aşağı hissəsindəki yaşıl sahədə isə yəhərli qızılı rəngli at təsvir olunmuşdur ki, bu da həmin ərazidə yerli cins at növlərinin olmasından və atçılığın inkişafından xəbər verirdi.

**1846** – Kaspi vilayəti ləğv edildikdən sonra Şuşa qəzası yeni yaradılan Şamaxı quberniyasının tərkibinə daxil edilmişdir.

**1848** – Şuşada ilk teatr tamaşaları göstərilmişdir.

| | |
|---|---|
| **1849** | – Hacı Qulu Məhəmmədəli oğlunun sifarişi ilə milli memarlıq üslubda – üçmərtəbə, 46 otaq və 2 böyük zaldan ibarət olan Hacı Quluların malikanəsi inşa edilmişdir;<br>– Memar Kərbalayi Səfixan Qarabaği tərəfindən inşa edilmiş Mehmandarovların qonaq evində Xalça muzeyi təşkil olunmuşdur;<br>– 23 apreldə Azərbaycanda ilk müsəlman şiə məktəbi olan Şuşa Müsəlman Şiə məktəbi fəaliyyətə başlamışdır. |
| **1864** | – Mirzə Rəhim Fənanın təşəbbüsi ilə "Məclisi-üns" ədəbi məclisi yaradılmışdır. |
| **1867** | – Yelizavetpol (Gəncə) quberniyası təşkil edilmiş və Şuşa qəzası onun tərkibinə qatılmışdır. |
| **1872** | – Mir Möhsün Nəvvabın təşəbbüsü ilə "Məclisi fəramuşun" ("Unudulmuşların məclisi") adlı ədəbi-bədii məclis yaratmışdır. |
| **1873** | – Xurşidbanu Natəvan (III Qarabağ xanı Mehdiqulu Xan Cavanşirin qızı) Şuşa şəhər əhalisinin suya olan tələbatını ödəmək məqsədi ilə saxsı borularla başlanğıcını şəhərdən yeddi kilometr aralıda yerləşən Sarıbaba dağının ətəyindən götürən su kəməri çəkdirmişdir ("Xan qızı bulağı"). |
| **1874-1875** | – Aşağı Gövhər ağa məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir. |
| **1874** | – Azərbaycanda, hətta bütün Zaqafqaziyada ilk olan Şuşa şəhər məktəbi təsis edilmişdir. |
| **1875** | – 27 martda Şuşa Xeyriyyə Cəmiyyəti yaradılmışdır;<br>– 26 oktyabrda Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən azərbaycanlı qızların dünyəvi təhsil almasında mühüm rol oynayan Şuşa Marinski Qız Məktəbi təsis edilmişdir. |
| **1878-1880** | – Xan qızı Natəvan tərəfindən Merdinli məhəlləsində bir gün kişilərə, bir gün qadınlara xidmət göstərən Şirin su hamamı tikdirilmişdir (Layihənin memarı Kərbəlayi Səfixan Qarabaği). |
| **1881** | – 20 sentyabrda Şuşada 6 sinifli Realnı məktəbi-nin əsası qoyulmuşdur. |

| | |
|---|---|
| **1883** | – Memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən Şuşa şəhərinin Saatlı tarixi məscid inşa edilmişdir;<br>– Şuşa şəhərinin mərkəzi meydanında yerləşən Yuxarı Gövhər ağa məscidi memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən inşa edilmişdir;<br>– Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müəllimi, görkəmli pedaqoq Səfərəli bəy Vəlibəyov tərəfindən “Səfərəli Bəyin Məktəbi” adlı anadilli məktəb açılmışdır. |
| **1893** | – Camal bəy Fətəlibəyov tərəfindən üçüncü dərəcəli xüsusi oğlan məktəbi olan Şuşa Rus-Azərbaycan Məktəbi açılmışdır;<br>– Mirzə Muxtar Məmmədov tərəfindən Rus-Azərbaycan məktəbi olan “Mirzə Muxtar Məktəbi” açılmışdır. |
| **1894** | – Şuşada qadın ibtidai məktəbinin əsası qoyulmuşdur. |
| **1897** | – Fevralda Şuşa Xeyriyyə Cəmiyyəti tərəfindən ilk dəfə olaraq şəhər kitabxanası təşkil olunmuşdur. |
| **1896** | – 6 oktyabrda Şuşa ziyalılarının təşəbbüsü ilə iki sinifdən ibarət Şuşa Nikolayevski Rus-tatar Məktəbi açılmışdır. |
| **1899** | – Mustafa bəy Mehmandarov “Təzə məhəllə bulağı”nı tikdirmişdir. |
| **1901** | – Yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə ilk dəfə “Xandəmirovun teatrı”nda “Şərq konserti” adlı musiqi gecəsi keçirilmişdir. |
| **1905-1907** | – Şəhər ermənilər tərəfindən hücuma məruz qalmış və yandırılmışdır. |
| **1906** | – Əhməd bəy Ağayevin təşəbbüsü ilə erməni daşnaklarına qarşı Qafqaz ümummüsəlman müdafiə komitəsi – “Difai” adlı milli partiya yaradılmışdır. |
| **1911-1914** | – “Şuşinski listok” adlı liberal-burjua istiqamətli ictimai-siyasi və ədəbi qəzet çap olunmuşdur. |
| **1913-1914** | – “Şuşinskaya jizn” adlı həftədə dörd dəfə çıxan dörd səhifəlik ictimai-siyasi və ədəbi qəzet çap olunmuşdur. |

| | |
|---|---|
| **1915** | – Xurşud bəy Əzizbəyovun təşəbbüsü ilə "Rəşadiyyə" məktəbi fəaliyyətə başlamışdır. |
| **1918-1920** | – Şuşa şəhərinin türk-müsəlman əhalisi ermənilər tərəfindən soyqırıma məruz qalmış və şəhərin xeyli hissəsi ermənilər tərəfindən yandırılmışdır. |
| **1919** | – Yanvar ayının 15-də Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Şuşa qəzasını da əhatə edən müvəqqəti Qarabağ general-qubernatorluğu yaradılmışdır. |
| **1922** | – Şuşa Mədəni-maarif texnikumu və İncəsənət məktəbi yaradılmışdır. |
| **1923** | – Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul tarixli dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmış, Şuşa qəzasının bir hissəsi onun tərkibinə daxil edilmişdir. |
| **1930** | – 8 avqust tarixində Şuşa rayonu yaradılmışdır. |
| | – Şuşada ilk Musiqi texnikumu yaradılmış və ilk direktoru məşhur tarzən-pedaqoq Həmzə Əliyev olmuşdur. |
| **1932** | – 10 oktyabrda Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə Xan qızı Natəvanın evində ilk uşaq musiqi məktəbi – Şuşa Musiqi məktəbi fəaliyyətə başlamışdır;<br>– Azərbaycan Həmkarlar İttifaqı Şurasının 1 saylı istirahət evi yaradılmışdır;<br>– Hazırda Şuşa rayon İcra Hakimiyyətinin rəsmi orqanı olan "Şuşa" qəzeti müxtəlif adlarla çap olunmağa başlamışdır ("Sosializm maldarlığı"; "Kolxoz bayrağı"; "Şuşa kurortu", "Şuşa"). |
| **1938** | – Fevral ayında Şuşa Dövlət Kolxoz və Sovxoz Teatrı yaradılmışdır. |
| **1943-1949** | – Şuşa Dövlət Kolxoz və Sovxoz Teatrının əsasında Şuşa Dövlət Musiqili Dram Teatrı yaradılmışdır və teatra Üzeyir bəy Hacıbəylinin adı verilmişdir. |
| **1948** | – Şuşa musiqi texnikumu uşaq musiqi məktəbi kimi fəaliyyət göstərməyə başlamışdır. |

**1957** – Şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas Mir Möhsün Nəvvabın Tokay Məmmədov tərəfindən hazırlanmış qəbirüstü abidəsi qoyulmuşdur.

**1959** – Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Şuşa şəhərində uşaqlıq illərini keçirdiyi evdə ev-muzeyi yaradılmışdır.

**1961** – Respublika Kommunal Təsərrüfatı Nazirliyi işçilərinin uşaqları üçün şəhərin səfalı guşələrindən biri olan "Üç mıx" adlanan yerdə 100 nəfərlik pioner düşərgəsi istifadəyə verilmişdir.

**1965** – Turşsuda 200 yerlik pansionat tikilmişdir.

**1967** – Vaqif küçəsində Molla Pənah Vaqifin büstünün açılışı olmuşdur.

**1969** – Ən böyük tarixi eksponant olan Gövhər Ağa Məscidində Şuşa Tarix Muzeyi fəaliyyətə başlamışdır.

– 18-24 сентбря открылся XIII Международный Музыкальный Фестиваль им. Узеира Гаджибейли. Торжественное мероприятие было организовано Фондом Гейдара Алиева, Министерством Культуры Азербайджанской Республики и Союзом Композиторов Азербайджана;

– Азербайджанская Национальная библиотека им. М.Ф.Ахундова представила пользователям онлайн методическое пособие «8 ноября - День Победы»;

– В Азербайджанской Национальной Библиотеке им. М.Ф.Ахундова была издана библиография под названием «Шуша – культурная столица Азербайджана». Указатель посвящен освобождению г.Шуша от захватчиков.

# Görkəmli şəxsiyyətlər Şuşa haqqında

Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan daim qorunması, saxlanılması üçün Şuşa şəhərini, qalasını yaradıblar; Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

“Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Dünyada bir çox şəhərlər var ki, onlar müəyyən mədəni və siyasi səbəblərdən rəmzə çevrilmişdir. Onların adlarını dilə gətirmək kifayətdir ki, hər birimizin yaddaşında həmin şəhərin obrazı yaransın. Hər bir azərbaycanlı üçün belə şəhər Şuşadır.

Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biri kimi olub və qalmaqdadır.

Bu gün o, həm də bizim torpaqlarımızın rəmzidir. Axı nə qədər ki, Şuşa erməni qoşunlarının işğalı altındadır, hər birimiz Şuşalıyıq.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

Şuşanın təmiz havası, buz bulaqları, əsrarəngiz mənzərələri onun musiqi beşiyi kimi formalaşmasında mühüm rol oynamışdır. Bu torpaq dünya musiqi mədəniyyəti xəzinəsinə professional Azərbaycan musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyovu, professional Azərbaycan vokal sənətinin banisi, dahi müğənni Bülbülü bəxş etmiş, neçə-neçə görkəmli bəstəkar və müğənni, şair və yazıçı məhz bu torpağın suyunu içmiş, onun ab-havasından qidalanmışdır. Buna görə də Şuşa "Qafqazın konservatoriyası" adını almış, vokal məktəbi kimi bütün Yaxın və Orta Şərqdə məşhur olmuşdur.

**Polad Bülbüloğlu,**
*Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri*

Pənah xan yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra Şuşa şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdırdı. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu.

**Mirzə Adıgözəl bəy Qarabaği,**
*Tarixçi*

Yeni qala tikdirmək üçün Pənah xan məmurlarla, din xadimləri ilə və Qarabağa yaxşı bələd olan dünya görmüş yerli sakinlərlə xeyli məsləhətləşdikdən sonra qərara gəldi ki, "Biz gərək dağlar içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz (bir an belə) kəsilməməlidir".

Xanın göndərdiyi bələdçilər ətrafı hərtərəfli öyrəndikdən sonra şad xəbərlə qayıdıb ona bildirdilər ki, "Yeni tikiləcək qalanın içində iki-üç bulaqdan başqa axar su yoxdur. Güman olunan yerlərdə quyu qazdılar və bu quyulardan bol su çıxdı. Bu xəbər Pənah xana çatdırıldı. Xan yaxın adamları ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu.

**Mirzə Camal Cavanşir Qarabaği**
*Tarixçi, Qarabağ xanlığının baş vəziri*

Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövlərdə Azərbaycanın cənnəti olan Qarabağın sinəsində ona həyat verən bir ürək kimi döyünmüş, aranlı-yaylaqlı bütün Qarabağın mərkəzi olmuşdur.

**Yaqub Mahmudov,**
*Akademik*

Şuşada bir gül bitir. Adına "Xarıbülbül" deyirlər. Onu da deyirlər ki, bu güldən ayrı heç yerdə əsər-əlamət tapılmaz. Çünki Xarıbülbül təkcə Şuşa torpağındakı məhəbbətdən cücərir. İlhamın və məhəbbətin Şuşadakı cövhəri ayrı heç yanda olmur və ona görə də Xarıbülbülü harada əkirsən ək, ayrı heç yanda bitmir.

**Yaşar Qarayev,**
*Filologiya elmlər doktoru, professor*

...Şuşa təkcə özünün gözəl təbiəti ilə deyil, həmçinin yüksək, ahəngdar və poetik mədəniyyəti ilə də şöhrət qazanmışdır. Şuşanı əbəs yerə poeziya və musiqinin beşiyi adlandırmırlar. Demək olar ki, Azərbaycanın bütün məşhur oxuyanları və çalanları Şuşada doğulmuşlar.

**Səməd Vurğun,**
*Xalq şairi*

Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər (Şuşa) təssəvvür ediniz. Bu, mənim şəhərimdir.

**Yusif Vəzir Çəmənzəminli,**
*Dövlət xadimi və yazıçı*

Azərbaycanın qədim diyarı Qarabağın baş şəhəri Şuşa səfalı havası, əsrarəngiz təbiəti, milli ənənələri, xalq sənəti dəyərlərini yaşadan istedadlı sənətkarları ilə yanaşı, yeni üsullu məktəbləri, təlim-tərbiyəçilik məharəti ilə seçilən ustad müəllimləri ilə də məşhurdur.

**Əjdər Ağayev,**
*Pedoqoq, professor*

Şuşa mənim nəzərimdə sevib-sevdirən, coşub-coşduran, yaşayıb-yaşadan

canlı bir möcüzədir. Şuşa mənim və mənim xalqımın həyat eşqi, yaşamaq sevgisidir, mənəviyyat bulağı, milli xarakteridir. Şuşanı yalnız Azərbaycanın emblemi adlandıranlar səhv edirlər. Şuşa yer üzündə gözəlliyin, insanlığın, mədəniyyətin, cəsarət və hünərin, mərdlik və qəhrəmanlığın, sənətin, sözün, muğamın, nəhayət, böyük-kiçikliyin, ağsaqqal-ağbirçəkliyin, kişi-qadın davranışının, bir sözlə, yüksək, bəşəri mədəniyyətin emblemidir.

**Famil Mehdi,**
*Filologiya elmlər doktoru, professor*

İtaliya vokal məktəbi Avropa musiqi tarixində hansı mövqeyi tutursa, Şuşa vokal məktəbi də Şərq musiqi tarixində eyni mövqeyi tutur.

**Firidun Şuşinski,**
*Musiqişünas*

Şuşa! Bu ad nə qədər əziz, doğma, munis, və sevimli bir ad; nə qədər dilnəvaz və mehriban bir ana-vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qarşısında daim diz çökərək "xakipayini" hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır.

**Həsən İxfa Əlizadə**,
*Mollanəsrəddinçi şair, dramaturq, nasir*

"Qala" adı ilə tanınmış Şuşa özü boyda canlı tariximizdir. Buradakı abidələr isə tariximizin yadigarı və səhifələridir. Şuşa abidələri xalqımızın keçdiyi şanlı və böyük həyat yolundan xəbər verir. Bu abidələrin öyrənilməsi keçmişimizə, torpaqlarımıza olan məhəbbətimizi daha da dərinləşdirir.

Şuşa – dünyaya böyük maddi və mənəvi mədəniyyət bəxş etmiş, Qarabağın bol sərvətə, mülayim iqlimə, zəngin bitki və heyvanlar aləminə malik tacıdır.

**Nazim Məmmədov,**
*Tarix elmləri doktoru*

Şuşa! Bu ad qəlbimdə o qədər şirinli-acılı xatirələr oyadır, hisslər, duyğular ləpələndirir ki, Şuşalı günlərimin – Şuşalı günlərimizin hansı anını daha çox qabartmaqda çətinlik çəkirəm. Və bu an Şuşa dahi rəssamın çəkdiyi böyük, əzəli və ədəbi bir tablo kimi gözlərim önündə durur.

**Mustafa Çəmənli,**
*Əməkdar mədəniyyət işçisi*

Şuşada musiqi çoxdur. Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. "Şuşa musiqiçiləri" Azərbaycan musiqisinin tarixini yaradırdılar və onun yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim edirdilər.

**V.Vinoqradov,**
*Şərq musiqisinin məşhur tədqiqatçısı*

Azərbaycanın emblemi adlandırılan Şuşa həm də Yer üzünün gözəllik sərgisi, mərdlik, cəsarət, hünər, qəhrəmanlıq meydanı, sözün, muğamın, musiqinin beşiyidir. Analoqu olmayan səslər muzeyidir. Vaxtı ilə dünyanın müxtəlif ölkələrindən gələn səyyahlar bu şəhəri haqqında yazanda mütləq onu Yer üzününü canlı muzeyi adlandırırdılar.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

## ŞUŞA İLƏ BAĞLI İSTİFADƏ EDİLƏN İFADƏLƏR

Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin, musiqisinin beşiyi

Azərbaycan musiqisinin məbədi

Azərbaycan tarixinin qeyrət və qəhrəmanlıq qalası

Azərbaycanımızın mədəniyyət paytaxtı

Azərbaycanın dilbər guşəsi

Azərbaycanın döyünən ürəyi

Azərbaycanın incisi

Azərbaycanın musiqi beşiyi

Dağ üstündə bir şəhər

Dağlar qoynunda şəhər

Doğma şəhər

Dünyanı heyrətləndirən mədəniyyət ocağı

Əsirlikdə olan mədəniyyət şəhərimiz

Gözəlliklər diyarı

Gözəlliklər məskəni

İtirilmiş cənnət

Qafqaz mədəniyyətinin beşiyi

Qafqazın "Kiçik Parisi"

Qafqazın konservatoriyası

Qala şəhər

Qarabağın baş qalası

Qarabağın mirvarisi

Qarabağın sinəsində Azərbaycan möcüzəsi

Qarabağın zirvə tacı

Qartal qanadlı şəhər

Qəlbimizdə göynəyən yaramız

Mədəniyyətimizin beşiyi

Musiqi ocağı

Musiqimizin beşiyi

Muzey şəhər

Ruhumuzun şəhəri

Səmavi, ilahi şəhər

Möcüzələr dünyası

Ürəyimizin şüşəsi

Yeddiqatdan yuxarıdakı cənnət

# I HİSSƏ

# KİTABLAR. MONOQRAFİYALAR

## 1.1. "Şuşa" mövzusu elmi, tarixi, siyasi araşdırmalarda

### 1958

**1. Eyvazov, B.** Şuşa kurortu / Bahadur Eyvazov; [red. K. İsrafilov]. – Bakı: Azərnəşr, 1958. – 41, [3] s.

***Kitabın içindəkilər:*** Bir neçə söz; Kurort sağlamlıq ocağıdır; Şuşa – dağ iqlimi stansiyasıdır; Şuşanın coğrafi vəziyyəti və bəzi tarixi məlumat; Şuşanın torpağı, bitkiləri və heyvanlar aləmi; Şuşanın iqlim xüsusiyyətləri; Şuşanın balneoloji imkanları; Şuşanın müalicə xassələri; Şuşa kurortunda müalicə oluna bilən və oluna bilməyən xəstəliklər; Şuşa kurortunun müalicə təsirinin mexanizmi; Şuşa kurortunun inkişaf etdirməyin növbəti vəzifələri və perspektivləri.

### 1962

**2. Şuşinski, F.** Şuşa / Firidun Şuşinski; [red. R. Salamova]. – Bakı: Uşaqgəncnəşr, 1962. – 54, [2] s.

Kitabda Azərbaycanın qədim və gözəl şəhərlərindən biri olan Şuşa haqqında qısa məlumat verilir. Onun bina olmasından, şəhərin qəhrəman keçmişindən bəhs olunur. Kitabın "İstedadlılar məskəni" hissəsində Şuşanın yetişdirdiyi məşhur sənətkarlardan danışılır. Əsərdə eyni zamanda Şuşanın bir istirahət ocağı kimi məşhur olması haqqında da məlumat verilir.

***Kitabın içindəkilər***: Tarixlər şahidi qədim şəhər; İstedadlar məskəni; Şuşa müalicə ocağıdır; Turşsu sovxozunda; Şuşanın gələcəyi daha gözəl olacaq.

### 1970

**3. Fətullayev, Ş.** Şuşa abidələri / Şamil Fətullayev; red. M. Nəcəfov; rəss. İ. Piçxadze. – Bakı: Gənclik. – 1970. – [16] s.

Kitabda Şuşa memarlıq abidələrinin ən yaxşı nümunələri haqqında qısa məlumat və fotoşəkilləri verilmişdir.

### 1978

**4. Şuşa** / foto Y. Xəlilov; [red. S. İsmayılova, S. Quliyev]. – Bakı: İşıq, 1978. – [32] s.

Bu bələdçi kitabında Azərbaycanın mədəniyyət mərkəzlə-rindən biri, öz

təbii gözəlliyi, sadə iqlimi və ab-havası ilə məşhur olan Şuşanın kurortlarından, tarixi abidələrindən, sanatoriya və istirahət evlərindən, dilbər guşələrindən qısa söhbət açılır.

**1981**

**5. İmanov, R.** Sosialist Dağlıq Qarabağı / Rəftar İmanov; AzSSR "Bilik" Cəmiyyəti. – Bakı: [s.n.], 1981. – 52, [3] s.

Kitabda Şuşa şəhərindən də bəhs olunmuşdur.

**1982**

**6. Ağayev, Ə.** 150 yaşlı Şuşa məktəbi / Əjdər Ağayev // Bakı. – Maarif, 1982. – 63, [1] s.

Kitab Şuşa şəhərindəki 1 nömrəli orta ümumtəhsil məktəbinin 150 illik yubileyi münasibətilə yazılmışdır. Kitabçada dünyəvi məktəbin meydana gəlməsi, inkişafı, məzunları və onların məktəb təhsilinin genişlənməsindəki rolundan bəhs edilir, məktəbin sovet hakimiyyəti illərindəki inkişaf yolundan danışılır, yubilyar məktəbin təlim-tərbiyə işi sahəsindəki təcrübəsinə toxunulur.

***Kitabın içindəkilər:*** Bir neçə söz; Şuşanın keçmişinə bir nəzər; Dünyəvi təhsil məktəblərinin yaranması; Şəhər məktəbinin inkişafı; Yüksəliş yollarında.

**1985**

**7. Bülbülün memorial muzeyi və onun filialı - Şuşadakı ev muzeyi**: qısa bələdçi / Azərb. SSR Mədəniyyət Nazirliyi; tərt. Ç. Məmmədov. – Bakı: İşıq, 1985. – [56] s.

Bələdçi kitabında SSRİ xalq artisti, professor Bülbülün memorial muzeyi haqqında üç dildə - Azərbaycan, rus və ingilis dillərində söhbət açılır. Muzeydə Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 6 minə yaxın sənəd toplanmışdır.

**8. Fərzəliyev, Y.** Dostluq, qardaşlıq diyarı / Yusif Fərzəliyev; Azərb. SSR Bilik Cəmiyyəti. – Bakı: [s.n.], 1985. –61, [3] s.

Kitabda Şuşa kurortu haqqında ətraflı məlumat verilir.

***Kitabın içindəkilər:*** Bir neçə söz; Keçmişdən səhifələr; Sosializm bayrağı altında; Ağır sınaq illərində; Müzəffər yürüş illəri; Yeni zirvələrə doğru.

**1986**

**9. Məmmədzadə, K.** Şuşa – Vaqifin türbəsi / Kamil Məmmədzadə, N. A. Sərkisov; red. C. Quliyev; foto. Q. M. Hüseynzadə; Az SSR EA Tarix İn-tu, Arxeologiya və Etnoqrafiya Sektoru. – Bakı: Elm, 1986. – 103, [4] s. – *Mətn parelel olaraq Azərbaycan, rus və ingilis dillərindədir.*

Kitabın mətnində Şuşanın tarixi, Vaqifin yaradıcılığı qısaca şərh olunur

və şəkillərində Ə. R. Salamzadə, E. İ. Kanukov və A. Z. Mustafayevin layihəsi üzrə tikilmiş bu türbənin memarlıq – bədii xüsusiyyətləri göstərilir. Burada türbə müəlliflərinin yaradıcılığı və elmi fəaliyyəti haqqında qısa məlumat verilir. Türbənin müasirlik və qədim xalq incəsənəti ilə üzvi surətdə bağlı olan kompozisiya üsulları və memarlıq üsulları təsvir edilir.

***Kitabın içindəkilər:*** Bir neçə söz (Cəmil Quliyev); Tarixdən səhifələr; Vaqif və onun dövrü; Dahi şairə ehtiram; Müəlliflər barədə söz; Gələcəyə baxış.

**1989**

**10. Axundov, N.** Qarabağ salnamələri / Nazim Axundov; red. F. Əliyev. – Bakı: Yazıçı. – 1989. – 232 s.

XIX əsrdə və XX əsrin əvvəllərində ümumən Qarabağ, xüsusən Qarabağ xanlığı haqqında Mirzə Adıgözəl bəy Mirzə Camal, Mir Mehdi Xəzani, Mir Yusif Qarabaği, Əhməd bəy Cavanşir və başqa müəlliflər salnamələr – "Qarabağnamə"lər yazmışlar. Kitabda bu salnamələr əsasında Qarabağın yaxın keçmişi və başlıca olaraq Qarabağ xanlığının siyasi tarixi işıqlandırılmışdır. Xüsusi bir bölmədə isə Qarabağ xanlığının iqtisadi-ictimai vəziyyəti və mədəni həyatından bəhs olunmuşdur.

Kitabda Şuşa qalasının əsasının qoyulmasından, Şuşa şəhərinin Qarabağ xanlığının inzibati mərkəzinə çevrilməsindən, şəhərinin mədəni həyatından, sənətkarlıq və ticarət əlaqələrindən və İran şahı Ağa Məhəmmməd xan Qacarın Şuşaya hücumlarından, şəhərin uzun müddət mühasirədə saxlanılmasından da bəhs olunmuşdur.

***Kitabın içindəkilərdən:*** Söz önü; Salnamələr və müəllifləri; Qarabağ xanlığının təşəkkülü; Qarabağ xanlığının siyasi tarixi; Qarabağ xanlığının iqtisadi-ictimai və mədəni həyatı; Söz ardı; Əlavələr.

**1991**

**11. Qarabağnamələr** / tərt. edən və çapa haz. Nazim Axundov; elmi red. Akif Fərzəliyev. – Bakı: Yazıçı, 1991. – K. 2. – 450 s.

Kitabda Azərbaycanın XIX və XX əsr salnaməçiləri Mirzə Yusif Qarabağinin, Mir Mehdi Xəzaninin, Rzaqulu bəy Mirzə Camal oğlunun, Mirzə Rəhim Fənanın, Baharlının, Həsən İxfa Əlizadənin, Həsənəli Qaradağinin Qarabağ haqqında tarixi, ədəbi-bədii, publisistik oçerkləri toplanmışdır. A. Bakıxanovun "Gülüstani-İrəm" əsərində Qarabağ xanlığının tarixi və onun başqa Azərbaycan xanlıqları ilə əlaqəsindən bəhs edən beşinci fəsil əlavə şəkilində kitaba daxil edilmişdir.

***Kitabın içindəkilərdən:*** **Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi:** Müqəddimə; Pənah xan kim idi?; Pənah xanın inşa etdiyi ilk qalalar və şəhərlər;

Kartli-Kaxetiya çarı II İraklinin Pənah xanı başqa xanlarla birlikdə həbs etməsi; Fətəli xan Əfşarın Şuşa üzərinə hücumu, məğlubiyyəti və hiylə işlətməsi; İbrahimxəlil xanın hakimiyyəti dövrü; İbrahim xanın Balakəndən Şuşaya gəlməsi və başqa hadisələr; İbrahimxəlil xanın öldürülməsi. İranla müharibənin genişlənməsi; Şuşanın mədəni həyatı və tarixi abidələri [S.310-350].

**1993**

**12. Kərimli, K.** Ürəyimin şüşəsi Şuşa / Kərim Kərimli; red. V. Quliyev. – Bakı: Azərbaycan, 1993. – I Kitab. – 80 s.

Kitab Şuşa könüllüləri batalyonunun komandiri, Azərbay-canın Milli qəhrəmanı Ramiz Bulud oğlu Qəmbərovun əziz və unudulmaz xatirəsinə ithaf olunmuşdur. Kitabda Şuşa uğrunda döyüşüb qəhrəmancasına həlak olmuş Vətən övladlarının bir hissəsi barədə məlumat verilmişdir.

***Kitabın içindəkilər:*** Ön söz yerinə. – Salam, Şuşam! (birnəfəsə): *şeir*. – Qəmbərov Ramiz Bulud oğlu; Teymurov Rizvan Rəhman oğlu; Abbasova Kəmalə Gəray qızı; Abbasov Pərviz Şəmsəddin oğlu; Abbasov Süleyman İsmayıl oğlu; Abbasov Coşqun Süleyman oğlu; Abbasov Habil Ümüdvar oğlu; Abbasov Şahin Əli oğlu; Abdullayev Vaqif İsmayıl oğlu; Abutalıbov Eyvaz Cəmil oğlu; Allahverdiyev Əli Aydın oğlu; Allahverdiyev İlham Baxşeyiş oğlu; Alıxanov Nazim Qulam oğlu; Babayev Bakir Bəbir oğlu; Babayev Bəbir Əsgər oğlu; Babayev Faiq İsmayıl oğlu; Bayramov Süleyman Firudin oğlu; Bəşirov Kamil Sabir oğlu; Bəşirov Cümşüd Şəmil oğlu; Vəliyev Azər Həsən oğlu; Vəliyev Rizvan Yusif oğlu; Qasımov Qənbər Aslan oğlu; Qədirov Telman Manaf oğlu; Quliyev Aydın Ərşad oğlu; Quliyev Zaur Kamil oğlu; Quliyev İslam İdris oğlu; Quliyev Nəriman Şükür oğlu; Eyvazova Fizzə Cümşüd qızı; Zeynalov Qaryağdı Əşrəf oğlu; Zeynalov Tahir Bahadur oğlu; İbrahimov Zakir Sabir oğlu; İsmayılov Vidadi Telman oğlu; İsmayılov Əşrəf Dayandur oğlu; İsmayılov Telman Qəhrəman oğlu; Əliyeva Sara Asif qızı; Əliyev Allahverdi Əsgər oğlu; Əliyev Araz Elman oğlu; Əliyev Bəxtiyar Ziyad oğlu; Əliyev İlham Bahadur oğlu; Əzizov Fazil Xəzri oğlu; Ələkbərov Zahid Vəliş oğlu; Əsədullayev Əli Mehdi oğlu; Əhmədov Gündüz Valeh oğlu; Kazımzadə Kamal Rəşid oğlu; Kərimov Haqverdi Tapdıq oğlu; Mədətov Cəsarət Bayram oğlu; Məmmədov Elçin Ramiz oğlu; Məmmədov İlham Allahyar oğlu; Məmmədov Nizami Murad oğlu; Məmmədov Rasim Xasay oğlu; Məmmədov Təvəkkül Xasay oğlu; Məhərrəmov Nazim Tofiq oğlu; Mehdiyev Əhliman Surxay oğlu; Mustafayev Hafiz Əli oğlu; Muxtarov Pənah Əsgər oğlu; Nəsirov Zahid Rəfael oğlu; Nəcəfov Alov Nəsib oğlu; Rzayev Tapdıq Köçəri oğlu; Rüstəmov Eldar Əmir oğlu; Rüstəmov Sabir Gəray oğlu; Səmədov Gündüz Hidayət oğlu; Səfərov Orduxan Aydın oğlu; Səfərov Osman Aydın oğlu; Səfərov Şahverdi Bəhlul oğlu; Teymurov Rövşən Bulud oğlu; Fərhadov Elşən Barat oğlu;

Fərhadov Füzuli Aydın oğlu; Həsənov Ümüd Rəhim oğlu; Həsənov Telman Elmar oğlu; Həsənov Tofiq Bəylər oğlu; Xudiyev Sərdar Bahadur oğlu; Cəfərov Vaqif Cəfər oğlu; Şahmuradov Natiq Əmirxan oğlu; Şirinov Ramiz Kamran oğlu; Şükürov Vəkil İsfəndiyar oğlu; Şükürov Tofiq Zakir oğlu; Alıyev Şahmalı Şükür oğlu; Bağırov Nasir Hüseynqulu oğlu; Bağırov Ruslan Hüseynqulu oğlu; Quliyev Validə İsgəndər qızı; Quliyev Oqtay Gülməmməd oğlu; Ələkbərov Ənvər Bəylər oğlu; Ələkbərov Kamil Kür oğlu; Əliyev Şakir Arif oğlu; Əsədov Elşən Əbülfət oğlu; Əsədov Məcnun Hidayət oğlu; Əsədov Tahir Hidayət oğlu; Zeynalov Osman Bahadur oğlu; Yusifzadə Vidadi Soltan oğlu; Mehdiyev İbrahim Pesi oğlu; Mədətova Yeganə Dadaş qızı; Mədətov Etibar Adışirin oğlu; Məmmədov Feyruz Heydər oğlu; Həsənov Əli Ələkbər oğlu; Həsənov Rövşən Əjdər oğlu; Hüseynov Müdafət Hacı oğlu; Şahmuradov Namiq Əmirxan oğlu; Şirinov Qərib İmanqulu oğlu; Şükürov Cavad Qəşəm oğlu.

**13. Quliyev, V.** Enək İsa bulağına: [Oçerklər və publisistik yazılar] / Vasif Quliyev; red. Ş.Süleymanoğlu. – Bakı: Azərbaycan, 1993. – 184 s.

***Kitabın içindəkilər: Şahin Süleymanoğlu.*** Axtarışda – Yaşanılmış ömrün akkordları; Sönməz ocaq; Həkim, müəllim, şair; Mehmandarovun peterburqlu oğlu; Krım müəllimlər məclisinin azərbaycanlı nümayəndəsi; Şuşa ziyalılarının müəllimi; İliçin şuşalı dostu; Enək İsa bulağına...; Xan qızının oğul yadigarı; Məcnun məhəbbətli sənətkar; Səngərdə keçən ömür; Çinar ömrü; Ömrün qızıl payızı; Gözlənilməyən qonaq; İgiddən güllə də qorxar; Partizan Vəli; Ailə estafeti və ya möcüzəsiz möcüzə; Yaddaşıma keçən səs; Qoşa hörük; Əzizimiz Şahin; Ata ocağının istisi; "Qarabağ maralı"nın ilk ifaçısı; Bir də görüşərik; Onu belə tanıyırlar; Ağac üzərində möcüzələr; Alim tanıyıram...; Dağ İsmayılın alim oğlu; Hansı filmi göstərəcəksən?; "Heyratı" heyrəti; Əgər tanımırıqsa; Tarixi keçmişə bağlılıq; Ulduzlar da bu axşam səndən danışır; Onun ekran dünyası; İşıqlı yolun yolçusu; Nəğməli barmaqlar; Əllərin möcüzəsi; Könlüm səndən yaralı; Sonuncu əsər; İlk görüş; Üçüncü görüşünüzü gözləyirik.

**14. Nəvvab, M. M.** 1905-1906-cı illərdə erməni-müsəlman davası / Mir Möhsün Nəvvab; red. V.Quliyev. – Bakı: Azərbaycan, 1993. – 128 s.

Kitabda 1903-1904-cü illərdə Şuşada və Qarabağın başqa kəndlərində erməni millətçilərinin Azərbaycan türklərinə qarşı törətdikləri cinayətlər haqqında ayrı-ayrı epizodlarda geniş məlumat verilir.

***Kitabın içindəkilər: K.Şərəfli.*** Qanlı-qadalı illərin dəyərli abidəsi. – Giriş; Bağırqan dağı; Qədimdə erməni-müsəlman davası; 1904-cü ildə Bakıda ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə; Lalayevin Bakı şəhərində törətdiyi əhvalat; Ermənilərin Bakı qubernatorunu öldürməsi; 1905-ci ildə İrəvan şəhərində baş verən erməni-müsəlman əhvalatı; 1905-ci ildə Naxçıvanda baş verən erməni-müsəlman əhvalatı; 1905-ci il Təbriz əhlinin əhvalatı; Xorasan əhvalatı; 1905-ci il Şuşa şəhərinin əhvalatı; Qarabağın Şuşa şəhəri və

ətrafında baş verən erməni-müsəlman iğtişaşları və ermənilərin məğlub olması; Kərbalayı İsgəndərin əhvalatı; Şükür Baqqalın əhvalatı; Erməni xəlifəsinin bütün keşişlərlə barış üçün məscidə gəlməsi; Şuşa şəhərinin ətrafındakı kəndlərdə baş verən əhvalatlar; Erməni tayfasına nəsihətlər; İbratamiz əhvalat; Hicri 1323-cü (miladi 1905-ci) il tarixində Tiflisdə baş verən əhvalatlar haqqında; Tiflis şəhərində erməni-müsəlman davası haqqında; 1905-ci ilin dekabr ayında Bakıda baş verən əhvalat; Ramazan ayında (15 noyabr) Şuşa şəhərində baş verən əhvalat; Gəncə şəhərində müsəlmanlarla ermənilər arasında baş verən əhvalat; Qala əhvalatı; Seyidin əhvalatı; Malıbəyli əhvalatı; Qaybalı kəndinin əhvalatı; 20 şəvval 1323 (noyabr 1905)-cü ildə Pirəməkidə baş verən əhvalat; İrəvanda erməni Həmzatın əhvalatı (24 şəvval 1323-cü il); Papravənd kəndinin əhvalatı; Əsgəran əhvalatı; Kazaklarla ermənilərin əlbir olmağı və müsəlmanlara xəyanəti; Əhməd bəyin qızı Həmidə xanımın əhvalatı; Cənab Cəfərqulu ağanın dəyirmanında olmuş əhvalat; Gülablı əhvalatı; Ayrı-ayrı kəndlərdə baş verən münaqişələr; Humay bəy Gəray bəy oğlunun əhvalatı; Qacar kəndinin əhvalatı; İran və Qarabağ atlılarının hücumu; Hacı Abbasın əhvalatı; Sisian kəndinin əhvalatı; Vağadü əhvalatı; Əsgəran yolu bağlananda hörmətli şəxslərin müsəlman tayfasından olan şəhər kasıblarına etdikləri köməklərin miqdarı və onların adları; Piçənisli kürdlərinin erməni tayfası ilə baş verən əhvalatı; Gəncə əhvalatı; Qarabağ əhvalatı; Ermənilərin paxıllığı və hiyləsi; Qaçaq Əsgər xanın əhvalatı; Qarabazar əhvalatı; 1906-cı ilin iyul ayında Şuşa şəhərində baş vermiş erməni-müsəlman davası.

**1995**

**15. Kərimli, K.** Hələ Şuşalıykən / Kərim Kərimli; Red. V. Quliyev; Ön söz əvəzi. Əli Mahmud. – II kitab. – Bakı: Azərbaycan, 1995. – 120 s.

Kitab Şuşada yaşamış, Şuşa uğrunda şəhid olmuş və ya itkin düşmüş Vətən övladları haqqındadır.

***Kitabın içindəkilər: Əli Mahmud.*** Qan rəngli kitab və ya söz əvəzi. – Müəllifdən; Hələ Şuşalıykən...: *şeir*; Həlak olanlar; İtkin düşənlər.

**16. Nazim, N.** İstiqlal ulduzları: Azərbaycanın milli qəhrəmanları / Nəcəf Nazim; Red. B. Hüseynov, İ. İsgəndərov. –Bakı: Azərnəşr, 1995. – 176 s.

Kitabda vətənin təhlükəli günlərində Qarabağ harayına hay verib döyüşlərə yollanan və qanlı-qadalı müharibə cəbhələrində rəşadətlə vuruşub bu şərəfli ada layiq görülmüş ilk milli qəhrəmanlar haqqında müxtəsər portret-oçerklər toplanmışdır.

Kitabda Şuşanın Milli Qəhrəmanları haqqında da məlumat verilmişdir.

***Kitabın içindəkilərdən:*** Hüseynov Sadıq Dayandur oğlu (1961-1992); Qəmbərov Ramiz Bulud oğlu (1962-1992); Məmmədov Nazim Murad oğlu (1958-1992); Teymurov Rizvan Rəhman oğlu [S.73-74; 93-95; 117-119; 166-168].

**1996**

**17. Qarabağlı, L.** Şuşa və Hindistan xatirələrim / Lətif Qarabağlı; red. V. Quliyev; rəssam. B. Yəhyayev. – Bakı: Azərbaycan, 1996. – 72 s.

***Kitabın içindəkilərdən:*** Müəllifdən. – Şuşanın tarixi – memarlıq abidələri; Coğrafi vəziyyəti. İqlimi; İqtisadiyyatı; Əhalinin məşğuliyyəti; Şəhərin su ilə təchizatı; Quruluşu; Üç düz küçə. Şəhər məhəllələri; İstirahət guşələri; İstirahət evi; Bulvar; Cıdır düzü; İsa bulağı; Turşsu məclisləri. Şəmilin bağı; Əlihəsənbəyin bağı. Şuşa toyları; Şuşa xörəkləri; Şuşanın ikiadlı adamları [S.3-29].

**18. Quliyev, V.** Əgər şuşalısansa... / Vasif Quliyev; Red.: Ş. Quliyev. – Bakı: Azərbaycan, 1996. – 184 s.

***Kitabın içindəkilər: Ş. Quliyev.*** Ön söz. – Üç dostdan biri; Memarın daş qələmi; Qarabağlı şair Seyid Nigari; “Mirzə Həsən”in ilk sakini; “Qarabağnamə”nin ilk redaktoru; “Əkinçi”nin İrəvan müxbiri; Viranələr günündə qalan şair; “Qarabağın üçüncü şaireyi-möhtərəməsi”; “Qarabağ qartalları”ndan biri; Şeirin badəsi məhəbbətdir; Səttarxanın şuşalı silahdaşı; Məşədibəyin “sağ əli”; Fırtınalar içində; Günəş şüası kimi; “Qırmızı molla” kimdir?; Bu, o Nəriman deyildi; Xan kəndinin inqilabçı oğlu; Birinci qurultayın Şuşa nümayəndəsi; Sinfi döyüş alovlarında; “Abbas bəyin məktəbi”; 111 yaşlı gəncin ömür kitabı; Bizim Koroğlu; Cəbhə dostluğu möhkəm olur; Qanlı papaq; Ömrün bir anlıq salnaməsi; Bayraq alıb hücum çəkir; Üzeyir bəy yanğısı; Şir biləkli pəhləvan; İki əl fırladır Yer kürəsini; Onun böyük ürəyi; Bəs niyə qayıtmadın?; Həmişəlik köçəsi oldu; O, Şuşanı bəzəyir; Ariflik sənə yaraşır; Əgər Şuşalısansa; Əsirliyin nə olduğunu gözlərimlə gördüm; Doqquz gün əsirlikdə; Babamın qanını alacağam; Bulaq.

**19. Muxtarova, T.** Şuşa harayı / Təranə Muxtarova; Red.: T. Cahangirov; Rəssamı: B. Qasımov. – Bakı: Azərnəşr, 1996. – 204 s.

Kitabda erməni faşistlərinin törətdikləri soyqırım siyasətindən, Qarabağ torpaqlarının eləcə də Şuşanın xaincəsinə ermənilərə təhvil verilməsindən bəhs edilir.

***Kitabın içindəkilər:*** Müəllifdən. – Şuşamın; Şuşa faciəsinin əks-sədası; Tarixə bir nəzər. Mirzə Adıgözəl bəy “Qarabağnamə”; Gözlə görünən tarix; Mənim bildiklərim. Salam Kərkicahanın dedikləri; El üçün döyünən ürək; Qanla yazılan reportaj; Qadına güllə atan “kişilər”; Bu fəryadları kim eşidəcək?; Taleyimiz necə olacaq?; Torpaq hamı üçün soyuq deyil; Daşaltı əməliyyatı; Malıbəyli od içində; Şahidlərlə üz-üzə; Malıbəyli şəhidləri; Xocalım, yurdum, kədərim mənim; Şəhid xocalılar, şahid xocalılar; Əbədiyyətə qovuşan Əlif; Vətən naminə, ana naminə; Süquta gedən yol; Qala və Qarabağ haray çəkirdi; Şüşə tək sınaram itirsəm səni; Xəyanətin qurbanı; Düyün açılmır, şahidlərin dedikləri; İgid Azayın dedikləri; Özümə haqq qazandırmaq istəmirəm; Torpaqları qaytarmasaq övladlarımız vətənsiz qalacaq; Atadan oğula yurd qalar, qeyrətsizlik yox; Azərbaycan Respublikası baş prokurorluğunda

istintaq davam edir; Azərbaycan Respublikası Müdafiə Nazirinin əmrindən çıxarış; Hökm; Şuşa niyə süqut etdi?; Şuşa bahadırları; Qarabağ pəhləvanları çağırır; Qan; Girov düşən keçmişimiz; Qan çilənmiş torpaq; Şaftalı ağacı çiçəkləyəndə; Altı ay əsirlikdə; Anama deyin ki...; Dağlar yaman qəribsəyib; Ata həsrəti; Bəxt üzüyü; Ağ atlı oğlan; Ana; Ana intiqamı; Düşmən sevinməsin qoy; Gözlər yoldadır; ... Duman gəl get bu dağlardan; Ölümünü duyan oğlan; Yad gəlməsin; Layla çal mənə, ana; Xarı bülbül qan ağlayır; Şuşa xilas edilməsə; Şuşa rayonu üzrə həlak olan, itkin düşənlər.

**1997**

**20. Biz öz yurdumuza qayıdacağıq**: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Xocalı, Kəlbəcər, **Şuşa,** Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları ictimaiyyətinin nümayəndələri ilə görüşlərinin materialları / Buraxılışa məsul. R. Mehdiyev, H. Orucov. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997. – 520 s.

Kitabda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Xocalı, Kəlbəcər, **Şuşa,** Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları ictimaiyyətinin nümayəndələri ilə görüşlərinin materialları toplanmışdır.

**1998**

**21. Xudiyev, İ.** Şuşadan şəhidlər xiyabanına / İlham Xudiyev; Red.: İ. Əhmədağa qızı. – Bakı: Azərbaycan "Bilik" Maarifçilik Cəmiyyətinin "Bayatı" Sifariş Ədəbiyyatı Mərkəzi, 1998. – 64 s.

***Kitabın içindəkilər:*** Qarabağda savaş var; Ömrün səhifələri; İgidlər məskəni Kərkicahan; Şahmuradovlar ailəsi; Natiq şəhid oldu; Ötən günlərimi qaytaraydılar; Mehman Quliyevin söhbəti; Natiq qəhrəmanlığının carçıları; Görüş yerimiz şəhidlər xiyabanı oldu; Son söz əvəzi.

**22. Köçərli, T.** Qarabağ: Yalan və həqiqət / Tofiq Köçərli; red. R. Əliyev; AzEA, İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutu; "İrşad" İslam araşdırmaları mərkəzi. – Bakı: Əbilov, Zeynalov və oğulları, 1998. – 244 s.

***Kitabın içindəkilərdən:*** **II Fəsil.** Qarabağ "Kiçik Azərbaycandır". Rusiya çarı "Şuşalı və Qarabağlı İbrahim xanın və onun varislərinin əyalətinin bütövlüyünü saxlanılmasına öz imperator zəmanətini verir (Türk və rus mənbələrindən). – **III Fəsil**. Erməni köçkünlərinin "Böyük hissəsini, xüsusən ən kasıbları Qarabağa getməyə təhrik etmək (General Paskeviçin əmrnaməsindən). – **IV Fəsil.** Daşnaqlar... Azərbaycan tərkibində olan Qarabağa, Naxçıvan diyarına... iddia etdilər (BSE-dən, 1926). – **VI Fəsil.** "Dövlətlərin ərazi bütövlüyünə aid hüquq normalarına uyğun hərəkət edərək xalqların ... öz müqəddəratını təyin etmək hüququna hörmət" bəslənilməlidir (Helsinki Yekun Aktından) [S.45-135,177-213].

**23. Quliyev, V.** "Vətən bağı"al-əlvandır / Vasif Quliyev; Red.: Ş. Quliyev. – Bakı: Azərbaycan. – 1998. – 183 s.

Kitab görkəmli musiqişünas Firidun Şuşinskinin unudulmaz xatirəsinə ithaf edilmişdir.

***Kitabın içindəkilər:*** Redaktordan. – İbrahimxəlil xanın baş məsləhətçisi; “Qarabağ içrə bir şair Kəlimullah Musadır”; “Bəxtsiz xan”; Bəhlulsayağı Talıbxan bəy; İbrahimxəlil xanın vuran əli; “Batmanqılınc” Məhəmməd bəy; Molla Pənah Vaqifin şair oğlu; İlk qarabağlı general; Abbas Mirzənin şəxsi yavəri; Mehdiqulu xanın xilaskarı; O gündən ki, düşdüm gözdən, könüldən...; Ömür keçdi, gün keçdi...; “Vətən bağı” al-əlvandır; Qarabağın ilk qazisi; Öz haqqından üz döndərmə...; Ey Sağəri, ay eylə, bu viranə dağılsın; “İki övlad anası”; Pəhləvan Nabat; Pəhləvan Seyid Həsən; Doğmamış Qafqazda analar qorxaq; Məskənin cənnət, həmdəmi mələk oldu...; Mən yardan, vətəndən uzaq düşmüşəm; Mirzə Əbülqasım Qazi; Qasım bəy Zakirin kürəkəni; “Məclisi-üns”ün ağsaqqalı; Bu dilim dildardan doymaz; Xan qızının şəxsi həkimi; Qanlı Behbud; Hər nakəsə veribdir xuda pulun ağını; Ölməyəydim, bir də görəydim səni!; Üç qardaşdan biri; “Sözlərinin hər biri min canə dəyər...”; Zakir “ailə məktəbi”nin məzunu; Xanlıq Rəhim; Gözəllik aşiqi, məhəbbət şairi; Məcnunsifət edib məni divanə; Maarif məhkəşanında parlayan ulduz; Fatıoğlu Əbdül; Şair əgər qədrin kəlamın bilməyə; Ot kökü üstə bitər.

**24. Şuşinski, F.** Şuşa / Firidun Şuşinski; red. M. Çəmənli, Z. Şahsevənli. – Bakı: Gənclik, 1998. – 428 s.

Musiqişünas Firidun Şuşinskinin nəhayətsiz məhəbbətindən yaranan “Şuşa” əsəri əslində bu qədim Azərbaycan şəhəri barədə olduqca dəyərli ensiklopedik topludur. Şuşanın gözəlliyini, əzəmətini vərəq-vərəq göz önündə açan bu etnoqrafik mənbə onun keçmişindən bu gününə kimi, bəxş etdiyi görkəmli sənət adamlarını, bütün mənəvi və maddi dəyərlərini öz səhifələrində əks etdirib.

***Kitabın içindəkilər: Mustafa Çəmənli.*** Qarabağın tacı. – Tarixlər şahidi qəhrəman şəhər; Balaca Paris; Qafqazın Konservatoriyası; Dağlarda mübarizə; İstedadlar məskəni; Ömür uzadan şəhər.

**25. Zeynalov, N.** İki ay erməni əsirliyində / Niyaz Zeynalov; red.: İslam Sadıq. – Bakı: Azərnəşr, 1998. – 64 s.

Kitabın müəllifi Şuşa rayonu Quşçular kəndinin sakinidir. 1992-ci ildə ermənilərə əsir düşmüş və iki ay düşmənlərin əlində qalmış, gözü ilə gördüyü dəhşətləri, başına gətirilən müsibətləri qələmə almışdır. Erməni cəlladları onun anasını və digər azərbaycanlıları gözləri önündəcə yandırmışlar. Gələcəkdə ermənilərin insanlığa qarşı törətdikləri cinayətlər beynəlxalq məhkəmə tərəfindən mühakimə olunarkən bu kitabça həmin cinayətləri təsdiqləyən bir sənəd kimi gərəkli ola bilər.

## 2000

**26. Şuşa şəhərinə həsr olunmuş elmi konfransın materialları, 22 dekabr 2000-ci il** / Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. – Bakı, 2000. – 83 s.

***Kitabın içindəkilər: Polad Bülbüloğlu.*** Giriş sözü. – ***Fəridə Məmmədova.*** Şuşa qalasının tarixi. – ***Yaşar Qarayev.*** Qarabağın ədəbi mühiti.... – ***Rasim Əfəndiyev.*** Şuşa Şəhərinin incəsənəti. – ***Zemfira Səfərova.*** Şuşa Azərbaycan musiqisinin məbədidir. – ***Şamil Fətullayev, Elturan Avalov, Rizvan Qarabağlı.*** Qarabağ memarlığı xanlıqlar dövründə və memar Səfixan yaradıcılığı. – ***Röya Tağıyeva.*** Alınmaz sənət qalası (Şuşa xalça sənətinə həsr edilir). – ***Cəfər Qiyasi.*** Azərbaycan xanlıqlar dövrü şəhərçiliyində Şuşanın yeri. – ***Şuşa şəhər mədəniyyət şöbəsinin müdiri Z.Abbasovun çıxışı.***

**27. Zeynalov, N.** İki ay erməni əsirliyində / Niyaz Zeynalov; Red.: İslam Sadıq; Rəssam: M.Taleh. - Bakı: Azərnəşr, 2000. – 64 s.

Müəllif Zeynalov Şuşa rayonu Quşçular kəndinin sakinidir. 1992-ci ildə ermənilərə əsir düşmüş və iki ay düşmənlərin əlində qalmış, gözü ilə gördüyü dəhşətləri, başına gələn müsibətləri qələmə almışdır. Erməni cəlladları onun anasını və digər azərbaycanlıları gözləri önündəcə yandırmışlar. Gələcəkdə ermənilərin insanlığa qarşı törətdikləri cinayətlər beynəlxalq məhkəmə tərəfindən mühakimə olunarkən bu kitabça həmin cinayətləri təsdiqləyən bir sənəd kimi gərəkli ola bilər.

## 2001

**28. Əlioğlu, Y.** Şuşa teatrı / Yaqub Əlioğlu; xüsusi red. K. Cəfərzadə; [ön söz müəl. İ. Rəhimli]. – Bakı: Nasir, 2001. – 138 s.

Azərbaycan teatr tarixinin ən maraqlı səhifələrindən birini özünəməxsus yaradıcılıq dəsti-xətti və sənət siması olan Şuşa teatrı təşkil edir. Müəllif Şuşa teatrının dünənindən-bugünündən, keçdiyi enişli-yoxuşlu sənət yolundan elmi-publisistik duyumlu qələmi ilə söz açır.

***Kitabın içindəkilər: İlham Rəhimli.*** Ön söz. – Bakıdan görünən Şuşa; Şuşanın teatr mühiti; Şuşa kolxoz-sovxoz teatrı; Ü.Hacıbəyov adına Şuşa Dövlət Musiqili Dram Teatrı; Şuşa Musiqili Xalq Teatrı; Şuşa Dövlət Musiqili Dram Teatrı; Repertuar (1990-2000); Şuşa teatr mühitinin yetirməsi; Ə.B.Haqverdiyev; Ü.B.Hacıbəyov; Mirzə Muxtar; N.B.Vəzirov; Z.B.Hacıbəyov; Əhməd Ağdamski; Əfrasiyab Bədəlbəyli; Soltan Hacıbəyov; Bülbül; Niyazi; Mehdi Məmmədov; Şəmsi Bədəlbəyli; Barat Şəkinskaya; Süleyman Ələsgərov; Məhluqə Sadıqova; Firəngiz Mütəllimov; Cəlil Bağdadbəyov; Elçin Məmmədov; Heydər Şəmsizadə; Zakir Bağırov; Əşrəf Abbasov; Məhərrəm Əlizadə; Nəsir Sadıqzadə; Son söz və yaxud güllənmiş heykəllər.

**29. Şuşa (Pənahabad) – 250**: Elmi-praktik konfransın tezisləri, 14 mart 2001 / Azərbaycan Respublikası "Təhsil" Cəmiyyəti. – Bakı, 2001. – 16 s.

***Kitabın içindəkilər: Camal Mustafayev.*** Şuşa şəhərinin yaranması və inkişafı. – ***Rizvan Qarabağlı.*** Şuşa memarlığı. – ***Əjdər Ağayev.*** Azərbaycanda təhsilin inkişafında Şuşa maarifpərvərlərinin yeri. – ***Şahnəzər Hüseynli.*** Türk dünyasının Şuşa mənşəli ictimai-siyasi xadimləri. – ***Qurban Bayramov.*** Qarabağ ədəbi mühiti. – ***İlham Rəhimli.*** Azərbaycan teatrının formalaşmasında Şuşa mühitinin rolu. – ***Cəlal Allahverdiyev, Rəhim Hüseynov.*** Qarabağ və elm. – ***Ramiz Zöhrabov.*** Ü.Hacıbəyov Azərbaycan professional musiqisinin banisidir. – ***Cəmilə Həsənova.*** Bülbül Azərbaycan professional vokal məktəbinin banisidir. – ***Nailə Rəhimova.*** Azərbaycan incəsənətində Bədəlbəylilərin rolu. – ***Aydın Ziyadlı.*** Natəvan və musiqi. – ***Vaqif Əbdülqasımov.*** Mirzə Sadıq Əsəd oğlu müasir Azərbaycan tarının yaradıcısıdır. – ***Fəttah Xalıqzadə.*** Ağalar Əliverdibəyovun musiqişünaslıq fəaliyyəti. – ***Yusif Vəli*****:** Şuşada musiqi təhsili.

**30.Şuşa rayonu**: [Xəritə] / Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi. – Bakı: Kartoqrafiya fabriki. – 2001. – 1 xəritə: rəngli. – 72x75.

Xəritədə Şuşa rayonunun ərazisi, kəndləri, əhalisi, təbii ehtiyatları və s. verilib. Şuşa rayonu haqqında məlumatda öz əksini tapıb.

**2002**

**31. Həsənoğlu, H.** Qarabağın seyidləri: [sənədli publisistika] / Həşim Həsənoğlu; red. M. Nərimanoğlu. – Bakı: Nasir, 2002. – Kitab 1. – 383, [1] s.

Kitabda müqəddəs şəxslərimiz, Qarabağ və onun ətraf bölgələrindən, tarixi torpaqlarımız olan Qərbi Azərbaycandan deportasiya edilmiş dili Quran kəlmələrimiz, seyid və övliyalarımız, pir və ocaqlarımız haqqında ətraflı söz açılır.

***Kitabın içindəkilərdən: Şuşanın seyidləri:*** Seyid Mirfəsih Mir Səbudər oğlu; Seyid Mir Möhsün Mir Əhməd oğlu Nəvvab; Mir Məhəmməd Mir Sədrai oğlu; Müştəhidzadə; Seyid Rəzi ağa; Seyid Qasım ağa; Seyid Həsən ağa; Seyid Mir Mehdi Mir Həsən oğlu; Seyid Mir Sadıq Seyid Mir Mehdi oğlu; Seyid Xəlil Seyid Əli oğlu; Seyid Saleh Seyid Müseyib oğlu [S.295-307].

**32. Kamranqızı, L.** Y.V.Çəmənzəminlinin memuarlar-ında Şuşa mühiti / Leyla Kamranqızı; Elmi red.: Ə. Saraçlı. – Bakı: Şuşa, 2002. – 104 s.

Zəngin ədəbi, elmi materiallar əsasında yazılan bu kitabda Şuşa, bütövlükdə Qarabağ həyatı və mühiti, doğma diyarla bağlı 120-yə qədər hekayəsi, "Studentlər" romanı, xatirə, gündəlik, məktub və məqalələri ilk dəfə sistemli şəkildə araşdırılır, dünya və klassik Azərbaycan ədəbiyyatında eyni janrlardakı əsərlərdə paralellər aparılır. Burada ədibin naməlum memuar və avtobioqrafik hekayələri haqqında da danışılır.

***Kitabın içindəkilər:*** Redaktordan; Giriş. – **I Fəsil.** ***Y.V.Çəmənzəminlinin memuar hekayələrində Şuşa həyatı***: Dünya ədəbiyyatında memuar və avtobioqrafiya; Azərbaycan ədəbiyyatında memuar və avtobioqrafiya örnəkləri; Y.V.Çəmənzəminlinin "Gündəlik" və "Xatirələr"ində Qarabağ həyatı; Memuar və hekayələrdə portret; Avtobioqrafik hekayələrdə ailə faciələri; Müəllifin mühacirət həyatı memuarlarda. – **II Fəsil.** ***"Studentlər" romanında prototip və proobrazlar:*** Romanın yazılma tarixi və janrı; Müəllif Rüstəm bəy obrazının prototipidir; Azərbaycanda tələbə həyatından ilk roman; Azərbaycanlı tələbə qadınlarının prototipləri; Rüstəm bəy əsərin baş qəhrəmanı kimi; Real şəxsiyyətlərin qohum və dostlarının proobrazları.

**33. Kərimov, İ.** Şuşa - Ağdam teatrı / İnqilab Kərimov; Elmi red.: N. Ağayeva. – Bakı: Elm, 2002. – 140 s.

Monoqrafiyada Şuşa və Ağdam teatrlarının yaranması, inkişafı mərhələləri nəzərdən keçirilir. Bu iki qonşu şəhərin teatr həyatında baş verən hadisələr tarixi fonda təsvir edilir.

***Kitabın içindəkilər:*** Müəllifdən; XIX əsrin I rübündə Şuşanın mədəni həyatı; Şəhərdə elmi və ədəbi fəaliyyətin artması; Sənayenin inkişafı; Teatr tamaşalarının yaranması; Əsrimizin ilk illərində Şuşada ictimai-siyasi və mədəni həyat; İnqilabi ideyaların genişlənməsi. 1905-1920-ci illər arasında Şuşa teatrının əsas problemləri və bu sahədə Şuşa teatr həvəskarlarının fədakarlığı; 1920-ci illərdə Şuşa-Ağdam teatrının fəaliyyəti; Şəhərin ictimai-siyasi və mədəni həyatında rolu; Yeni ideyalar, yeni repertuar yaratmaq səyləri. Teatrın Böyük Vətən müharibəsi dövrü. Teatrın bağlanması, dram dərnəyi və xalq teatrı kimi fəaliyyətini davam etdirməsi.

**34. Mustafayev, C.** Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq / C.M.Mustafayev; elmi red. T.T.Mustafazadə; AMEA, A. Bakıxanov adına Tarix İnstitutu. – Bakı: Elm, 2002. – 272 s.

Monoqrafiya Azərbaycan tarixşünaslığının indiyədək tədqiqat obyekti olmamış problemlərindən birinin – xanlıqlar dövründə sənət istehsalı probleminin öyrənilməsinə həsr edilmişdir.

Kitabda Azərbaycanın başlıca sənətkarlıq mərkəzlərindən biri kimi Şuşadan da geniş bəhs olunmuşdur.

## 2003

**35. Ağamirov, M.** Şuşa musiqi məktəbi / Mirkamil Ağamirov; Red.: Vasif Quliyev. – Bakı: Şuşa, 2003. – 80 s.

Kitab Şuşa musiqi məktəbinin yaradıcısı, Azərbaycan professional vokal sənətinin banisi görkəmli müğənni, SSRİ xalq artisi, SSRİ Dövlət mükafatı laureatı, professor Bülbülün unudulmaz və parlaq xatirəsinə ithaf edilmişdir.

**36. Məhərrəmov, Z.** Sözün yaddaşı əbədidir... / Ziyəddin Məhərrəmov; elmi red. İ. Vəliyev; red. Ə. Mahmud. – Bakı: Günəş, 2003. – 237, [2] s.

Kitabda əsasən Şuşanın tarixindən yığcam məlumatla yanaşı, ötən əsrin altmışıncı illərindən etibarən burada çalışan rəhbər işçilərin fəaliyyətinin bəzi məqamları, onların keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin seperatçı erməni başçılarının təzyiqlərinə məruz qaldıqları, erməni millətçilərinin torpaqlarımıza və xalqımıza qarşı yönəltdiyi düşmənçilik siyasətinin acı nəticələri, Qarabağ torpaqları uğrunda həlak olan qeyrətli oğullarımızın, qəlbində Qarabağ, Azərbaycan sevgisi olan, özündə Vətən, torpaq təəssübünü yaşadan görkəmli elm adamlarının tərcümeyi-hal oçerkləri öz əksini tapmışdır.

***Kitabın içindəkilər:*** Redaktordan; Ön söz yerinə; Özü də, insanları da doğma Şuşa; "Qala"ya ilk səfər və "Danışır Şuşa"; Dağlıq Qarabağın rəhbər azərbaycanlı kadrları. – ***İ. Məhərrəmov.*** Şuşanın taleyində əvəzolunmaz ilk rəhbəri. – ***Q. Aslanov***. Şuşa onun idealı idi. – ***Ə. Kərimli***. Təvazökarlığı ilə örnək idi. – ***N.Hacıyev.*** O, Vəzifəsindən qəsdən uzaqlaşdırıldı. – ***Ə.Məhər-rəmov***. Camaatın ürəyincə işləsə də.... – **Qarabağ hadisələrinin şəhid rəhbəri*:* *Z. Hacıyev.*** Xalqın ümid yeri. – ***V. Cəfərov***. Onunla fəxr edirik. – ***M. Gözəlov.*** Hamını özünə dost bilirdi. – **Sinəsini sipər edənlərdən biri: *S. Alıyev***. Cəsarətli müstəntiq. – **Qaçqın rayonunun rəhbərləri və müdrik el ağsaqqalları: *V.Hüseynov***. Nizami Keykavus oğlu Bəhmənov; Hadisələrin canlı şahidi. – ***M. Quliyev***. Qələmini süngü edən Əli Mahmud; Arzusu Şuşanı azad görmək idi. – ***Q. Məmmədov***. Yurd həsrəti ilə döyünən ürək. – ***S. Qəndilov***. Tanınmış ziyalılar, elm və mədəniyyət adamları..; Ömür yolu nurlu insan. – ***Z. Göyüşov***. Unudulmaz filosof. – ***R.Göyüşov***. Arxeoloq alim. – ***T.Rəsulov*** Nəsillərə nümunə. – ***Ə.Qasımov.*** İqtisadçı alim, yazıçı publisist ömrü. – ***M.Məmmədov.*** Unudulmayanlardan biri. – ***Q. Məmmə-dov***. Görkəmli ekoloq alim. – ***İ. Vəliyev.*** Qara Mustafa oğlu Namazov; Şair, alim, naşir, publisist; Nizami Manaf oğlu Xudiyev; Paşa Qəlbinur; Sevinc İsmayıl qızı Əkbərova; Aqiyə Həbib qızı Naxçıvanlı; Roza Əli qızı Əliyeva. – ***S. Səlimov.*** Çətinliklərdə keçən ömür; Surəddin Musa oğlu Zeynalov; Bəhman Salman oğlu Avılov; Cəfər Əlfida oğlu Məmmədov; Azər Fəzi oğlu Kərimov. – ***A. Bayramov***. Tərcüməçi, filoloq alim; Şamil Ağababa oğlu Qasımlı; Azad Firidun oğlu Alıyev; Əhməd Həsən oğlu Hüseynov; Allahverdi Şəmistan oğlu Hacıyev; Nəriman Haqverdi oğlu Əliyev. – ***S. Əliyev***. Budaqlı nəslinin fəxri; Fikrət Əhməd oğlu Rəhimli; Eldar Həsənxan oğlu Azadov; Ələddin Kazım oğlu Bədəlov; Musa Nizam oğlu Quluzadə; Oruc Cəmil oğlu Məmmədov; **Publisistika: *T.Rəsulov, Z. Məhərrəmov.*** Aşıq Ədalət Göyçədə və Şuşada; Göyçə folkloru antologiyası; Dünya dövlətlərinin əsas coğrafi göstəriciləri...; Goranboy ensiklopediyası; İnsana üz tutanda. – ***Q.Bayramov.*** Dədə Ələsgərin "Dağlar" və "Dolanır" rədifli qoşmaları; Dədə Ələsgərin sevimli şəyirdlərindən biri; Göyçə aşıq şeirində xalq danışıq dili; XX

əsr Göyçə aşıq mühiti; Vətən intizarına həsr olunan toplu; Dədə Qorqud ənənələri müasir dastan sənətində; "El köçdü..."; Mənəvi dəyərləri yaşadanlar; Azərbaycan dilinin tədrisində şifahi xalq yaradıcılığı; Ünvanlı təbriklər.

**37. Şuşa-Azərbaycanın mədəniyyəti və tarixi incisidir**: elmi konfransın materialları, 31 may 2002-ci il / Azərb. Resp. Mədəniyyət Nazirliyi; red. A. Bayramov, T. Vəliyev. – Bakı: Nağıl evi, 2003. – 44 s.

***Kitabın içindəkilər**: **Polad Bülbüloğlu***. Giriş sözü. – ***Nizami Bəhmənov.*** Şuşa bu gün. – ***Teymur Bünyadov.*** Şuşanın dağları başı dumanlı. – ***Gülçöhrə Məmmədova***. Qarabağın memarlıq abidələri. – ***Tofiq Vəliyev***. Şuşa və onun tarixi keçmişi. – ***Şəmsi Gülməmmədova***. XIX əsrdə Qarabağın musiqi mədəniyyəti. – ***Çingiz Əlioğlu***. Şuşa nəğmələri. – ***Zahid Abbas-ov***: Yekun söz.

**38. Tapdıqoğlu, N.** Qarabağın tacı Şuşam: [ensiklopedik məlumat kitabı] / Nazim Tapdıqoğlu; Red.: Vidadi Əliyev. – Bakı: 2003. – 208 s.

Kitabda Şuşa rayonunun yüzlərlə toponimləri, rayonun görkəmli şəxsiyyətləri, tanınmış musiqiçiləri, şəhid və itkinləri, bəzi şuşalıların ləqəbləri haqqında məlumat xarakterli bilgilər verilmişdir. Rayonun tarixi, etnoqrafiyası və coğrafiyası ilə bağlı bu qısa ensklopedik məlumat kitabında rayondakı kəndlər, qəsəbələr, dağlar, qayalar, dərələr, zirvələr, bulaqlar, çaylar, meşələr, tarixi memarlıq abidələri, tayfalar, qəbiristanlıqlar və s. adların mənşəyi, mənası, dil mənsubiyyəti haqqında izahlı şərhlər də əks olunmuşdur.

***Kitabın içindəkilər: Nazim Tapdıqoğlu***. Ön söz. – **I Fəsil.** Müqəddəs Qarabağım; **II Fəsil.** Şuşa toponimləri; **III Fəsil.** Şuşa rayonunun son 200 ildəki bəzi görkəmli şəxsiyyətləri; **IV Fəsil.** Erməni təcavüzü nəticəsində həlak olan və itkin düşən şuşalıların siyahısı; **V Fəsil.** Şuşa tanınmış musiqiçiləri; **VI Fəsil.** Bəzi şuşalıların ləqəb və ayamaları; Son söz.

## 2004

**39. Məmmədov, N.** Şuşa və şuşalılar / Nazim Məmmədov; red.: D. Qüdrətov; Azərbaycan Dövlət Pedaqoji Universiteti. – Bakı, 2004. – 127 s.

Kitabda Şuşanın coğrafiyası, tarixi, görkəmli şəxsiyyətləri, Şuşanın işğalı haqqında materiallar verilmişdir.

**40. "Şuşa–Azərbaycanın mədəniyyət və tarix incisidir":** elmi konfransın materialları, 5 may 2003-cü il / red. T.Vəliyev; Azərbaycan Respublikas Mədəniyyət Nazirliyi. – Bakı: Nağıl evi, 2004. – 61 s.

***Kitabın içindəkilər**: **Polad Bülbüloğlu.*** Giriş sözü. – ***Nizami Bəhmənli.*** Qarabağ torpağına erməni iddiasını biz özümüz gündəmdən çıxarmalıyıq. – ***Vasif Adıgözəlov***. Şuşasız Azərbaycan, Azərbaycansız Şuşa ola bilməz. – ***Rəhim Hüseynov.*** Qarabağ və elm. – ***Yunis Hüseynov.*** Şuşa Qarabağ xanlığının paytaxtıdır. – ***Qurban Bayramov.*** Qarabağ ədəbi mühiti və onun Azərbaycan ədəbiyyatının inkişafında rolu. – ***Çingiz Əlioğlu.*** Qarabağa həsr

olunmuş kitablarımızı geniş yaymalıyıq. – ***Rəsul İsmayılov.*** XX əsrdə Şuşa şəhərinin musiqi mədəniyyəti. – ***Bərsail Məhişoğlu.*** Şuşa bölgəsinin toponimləri. – ***Zahid Abbasov.*** Son söz əvəzi.

**41. Tapdıqoğlu, N.** Qarabağın tacı Şuşam: [ensiklopedik məlumat kitabı] / Nazim Tapdıqoğlu; Red.: B. Budaqov. – Bakı, 2004. – 264 s.

Kitabda Şuşa rayonunun yüzlərlə toponimləri, rayonun görkəmli şəxsiyyətləri, tanınmış musiqiçiləri, şəhid və itkinləri, bəzi şuşalıların ləqəbləri haqqında məlumat xarakterli bilgilər verilmişdir. Rayonun tarixi, etnoqrafiyası və coğrafiyası ilə bağlı bu qısa ensklopedik məlumat kitabında rayondakı kəndlər, qəsəbələr, dağlar, qayalar, dərələr, zirvələr, bulaqlar, çaylar, meşələr, tarixi memarlıq abidələri, tayfalar, qəbiristanlıqlar və s. adların mənşəyi, mənası, dil mənsubiyyəti haqqında izahlı şərhlər də əks olunmuşdur.

***Kitabın içindəkilər: Nazim Tapdıqoğlu***. Ön söz. – **I Fəsil.** Müqəddəs Qarabağım; **II Fəsil.** Şuşa toponimləri; **III Fəsil.** Şuşa rayonunun son 200 ildəki bəzi görkəmli şəxsiyyətləri; **IV Fəsil.** Erməni təcavüzü nəticəsində həlak olan və itkin düşən şuşalıların siyahısı; **V Fəsil.** Şuşa tanınmış musiqiçiləri; **VI Fəsil.** Bəzi şuşalıların ləqəb və ayamaları; Son söz.

## 2005

**42. Axundbəyli, P.** Şuşa həsrəti / Pərviz Axundbəyli; Nəşriyyat red.: H. Əbilov. – Bakı: Azərnəşr, 2005. – 460 s.

Kitaba müəllifin 1962-2005-ci illərə kimi qələmə aldığı məqalə və oçerkləri, satirik yazıları daxil edilmişdir. Bu topluda müəllifin Şuşaya dərin məhəbbətindən, adət və ənənələrimizdən, klassik irsimizdən, görkəmli elm və mədəniyyət xadimlərimizin həyat və yaradıcılığından, musiqi və sənət adamlarımızdan, müasirlərimizin elmi-pedaqoji və ədəbi irsindən ətraflı bəhs edilmişdir.

***Kitabın içindəkilər:*** Şuşa həsrətli Pərviz; Ön söz; Müəllifdən. – ***Adət və ənənələrimiz:*** Müqəddəs Ramazan bayramı haqqında qeydlərim; Müqəddəs qurban bayramı haqqında qeydlərim; Novruz bayramı və adət-ənənələri haqqında qeydlərim. – ***Şuşa haqqında mülahizələrim:*** Novruzlu Şuşa həsrəti; Hardasan, ay Şuşa?!; Yadigarlar qorunmalıdır; Şuşa haqqında düşüncələrim; Şuşadan yadigar. – ***Xatirələr və memuarlar:*** Həyat səhifələrimdən xatirələrim; Universitet həyatımdan xatirələrim; Kiyev xatirələrim; Çexoslovakiya Respublikasına turist səfərim haqqında; Atam Mirzə Xosrov-Şaiq haqqında şəxsi xatirələrim; Ədəbiyyat aləminə ilk addımım; Atam Mirzə Xosrovun həyat və yaradıcılığına həsr etdiyim monoqrafiyam haqqında; Dissertasiya işim haqqında. – ***Klassik irsimiz haqqında:*** Mirzə Əli Aşiq Axundzadə; Mirzə Xosrov Şaiq Axundzadə; Mirzə Xosrov Şaiqin Mir Möhsün Nəvvab haqqında tədqiqat xarakterli xatirələri; Səməd Vurğunun Xosrov Şaiqlə görüşü; Mirzə Xosrovun

Əliağa Vahidlə ədəbi əlaqələri. – ***Görkəmli elm və mədəniyyət xadimlərimiz:*** Akademik Mehdi Mehdizadə haqqında xatirələrim; Akademik Ziya Bünyadov haqqında xatirələrim; Akademik Püstəxanım Əzizbəyova haqqında xatirələrim; Rusiya Federasiyası **Kommermiya** Elmlər Akademiyasının ilk azərbaycanlı akademiki; Həyat səhifələrimlə bağlı bir alimin ömür yolu; Vətən torpağının övladı; Şərəfli həyat yolu; Pedaqogika elminin fədaisi; Təhsil islahatları zamanın tələbidir; Xəlil Rza Ulutürk haqqında xatirələrim; Əliyar Qarabağlı haqqında xatirələrim; Bacarıqlı yurd başçısı Qəşəm Aslanov haqqında xatirələrim; Milli mədəniyyətimizin carçısı – Güllü xanım! – ***Musiqi və sənət adamlarımız:*** Bülbülü xatırlayarkən; Sevimli bəstəkar Üzeyir Hacıbəyovun iş otağında görüş; Bəstəkarla ikinci görüş; Mirzə Xosrov Şaiqin qəzəllərinin ilk ifaçılarından biri; Mirzə Xosrov və Azərbaycan musiqiçiləri; Şuşa şəhərinin "Tarix muzeyi"ndən qeydlərim – ***Müasirlərimiz:*** Qarabağ – maarif səmasının parlaq ulduzu; Qocaman alim, qayğıkeş müəllim; Humanist insan və müdrik ağsaqqal; İqtisadçı alim; Mən onunla fəxr edirəm; Qayğıkeş insan, peşəkar təşkilatçı; Mənalı ömür; Müəllimlik şərəfli peşədir; Qarabağın "Qızıl qələm"li jurnalisti; Tədqiqatçı-alim və jurnalist; Mənalı həyat yolu; Bizim Həmid müəllim; Bizdən bir söz qalacaq; Onun qiymətini ulu Tanrı verib; Ömrünün ən müdrik çağlarını yaşayan şair-publisist; Bahar oğlu; İşin avand olsun, Vidadi müəllim!; Azərbaycan qadınının simvolu; Qayğıkeş həkim; Onun həyat yolu; Gələcəyin filoloqu və müğənnisi; Ömrün qısa baharı; Kənd müəllimi. – ***İlk görüşlər:*** Bir görüşün tarixçəsi; Şüvəlanda Xəzər sahilinə səyahət; O, öz sənətinin pərəştikarıdır; Şair dostumla görüş; İsa Dadaş oğlu ilə görüş; Psixiator Məhəmməd Süleymanın fəryadı; Əziz Şərifin və Almas İldırımın yurddaşı kimi. – ***Muzeyşünaslıq fəaliyyətimdən qeydlərim:*** Ali məktəb muzeyləri; Mütəxəssis kadrların yetişdirilməsində ali məktəb muzeylərinin rolu; Xalq təhsili muzeyləri və tədris, təlim-tərbiyə işləri; Muzeyşünaslıq fəaliyyətimdən qeydlərim; İqtisad İnstitutunda muzeyin zənginləşdirilməsi problemləri; İqtisad Universitetinin tarixi muzeyi; Azərbaycan Dövlət İqtisad Universitetində baxıcılarına veriləcək məlumat; Universitetdə muzeylərin yaradılması tarixindən məlumat; Muzeyşünaslıq fəaliyyətimdən düşündüklərim. – ***Mülahizələr və nəsihətlər:*** Həyatımın bəzi anları və mənəviyyat problemləri; Şərəfli ömrü həyatda yaşatmaq lazımdır; Allahın rəhmi; Övladlarıma nəsihət; Ata-ana haqqı; Ər evin tacıdır; Muğam ifaçılarına xələl gətirmək olmaz; Ailə xoşbəxtliyini daim qorumaq lazımdır; Saf məhəbbət haqqında şəxsi düşüncələrim; Mailovun teatr binasının faciəli yanması. – ***Bir diviziyanın keçdiyi yol:*** 223-cü Belqrad diviziyasının mübarizəsinin hünər salnaməsi. – ***Qarabağ torpaqları uğrunda mübarizədə keçən yol:*** Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr; "Qanlı yanvar" faciəsindən qeydlərim; Əsrin faciəsi – Xocalı soyqırımı. – ***Kitablar aləmində:*** Görkəmli şəxsiyyətlərin kitablar haqqında kəlamları; Bir daha

terminlər haqqında; İblisin qurbanları; İdeologiyamız və tarixi taleyimiz; “İgidin ürəyi haçalı olar” romanı haqqında mülahizələrim; Bulağın 19 illik ömür yolu. – ***Əmək cəbhəsində:*** Bir birqadanın iş təcrübəsindən; Tələbə inşaatı – həyat məktəbidir; Əsl məktəb istehsalatı. – ***Satirik yazılar:*** Yenə də barışdılar...; “Elm” pioner düşərgəsində maraqlı əhvalatlar; Yeni Yasamalın “yeni dərd”ləri...; Balası, bir yaxın gəl...; “Çoban Əhməd”in əhvalatları...; “Bakılılar” sanatoriyasından qeydlərim; Hind toyuqlarının fəryadı – ***Təbiəti seyr edərkən:*** Qış fəslinin şıltaqlığı; Bayram şənliyi; Gəl-gəl, a yaz günləri; Ömür-gün qonşularımız; Qışın oğlan çağı; Dəllək Aftandil. – ***Qəzetlərdən sətirlər:*** Tarixi və mədəni abidələrimizin ziyarətgahında; Hörmətli redaksiya!; Qeydinə qalanı hayıf ki, yoxdur....; Tükənməz səbrimizə təsəlli olardı...; Midhət Cavanşiri axtarıram; Arzunuz gerçək olsun...; Soy kökümüz haqqında qısa məlumat.

**43. Əliyev, H.** Dağlıq Qarabağ həqiqətləri / Həmzə Əliyev; red. İ. X. Zeynalov. – Bakı: Renessans, 2005. – 140 s.

Monoqrafiyada erməni millətinin təşəkkül tapması, onların formalaşması, Cənubi Qafqaza, o cümlədən Qarabağa necə gəlmələri, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi və digər məsələlər keçmiş dövlətlərdən bugünkü vaxta qədər tarixi ardıcıllıqla, bitkin şəkildə verilmiş və tarixi faktlarla əsaslandırılmışdır.

Kitabda Dağlıq Qarabağın inzibati mərkəzi kimi Şuşadan da geniş bəhs olunmuşdur.

***Kitabın içindəkilər:*** Ön söz; Müəllifdən; Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında qısa tarixi-coğrafi məlumat; Erməni millətinin təşəkkülü və “Böyük Ermənistan” dövlətinin yaradılması ideyası; Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması; Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi inkişafı; Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-mədəni inkişafı; Azərbaycanda ictimai-siyasi vəziyyət və Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi; Ermənilərin törətdikləri soyqırımları və terror aktları; Nəticələr, faktlar, həqiqətlər.

**44. Hacıyev, N.** Dağlıq Qarabağın tarixindən sənədlər / Niyaz Hacıyev; Məsləhətçi və təşkilatçı. M. Məmmədov; Red. S.Xəlilova. – Bakı: Gənclik, 2005. – 192 s.

Kitabda son 17 il ərzində Dağlıq Qarabağ problemlərinə dair hərtərəfli və operativ informasiya verilir. Sənədlər toplusunda DQMV-nin yaranma tarixinədək olan dövr, DQMV tarixindən sənədlər, DQMV-nin ləğvindən sonrakı dövr araşdırılır.

***Kitabın içindəkindən:*** **I. DQMV-nin yaranma tarixinədək olan dövr:** ***1756-1757-ci illər.*** Pənah xanın Şuşa qalasını tikdirmişdir. – ***iyun-iyul 1795-ci il.*** Şah Qacar 85 min nəfərlik qoşunla Şuşanın 33 gün mühasirədə saxlamışdır. – ***may 1797-ci il.*** Şah Qacarın Azərbaycana 2-ci yürüşü. Dağlıq Qarabağa hücum zamanı Şuşa qalasını zəbt edilmişdir. – ***4 iyul 1797-ci il.*** İran istilasına qarşı

müqavimətlər və İran şahı Qacar Şuşada öldürülmüşdür. – ***16-21 avqust 1905-ci il.*** Ermənilərin Şuşaya hücumu və onları məğlubiyyətə uğramaları. – ***1897-ci ilin*** rəsmi məlumatlarına görə Şuşa qəzasının sahəsi 4911 km$^2$, əhalisi isə 140,7 min nəfər idi. – ***1905-1907-ci illər.*** Zəngəzur, Gəncə, Şuşa, Naxçıvan, Ordubad, Cavanşir və Qazax mahallarında erməni qırğınları. – ***1918-1919-cu illər.*** Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.Mixaylovun təqdim etdiyi sənədlərə əsasən Şuşa-Qaryagin və Şuşa-Əsgəran yolları ermənilərin nəzarəti altına keçmişdir. – ***29 yanvar 1919-cu il.*** Azərbaycan Xalq Cümhuriyyəti özünün mübahisəsiz torpaqlarında qayda-qanun yaratmaq məqsədi ilə Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında general-qubernatorluq yaradılmışdır. – ***22-23 mart 1920-ci il.*** Şuşa şəhəri Novruz bayramı keçirməyə hazırlaşmışdır. **II. DQMV tarixindən sənədlər:** ***10 avqust 1977-ci il.*** Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu elan edilir. – ***12 yanvar 1979-cu il.*** Heydər Əliyev Azərbaycan KP MK-nin I katibi kimi Dağlıq Qarabağa, o cümlədən Şuşaya gəlmişdir. – ***14 yanvar 1982-ci il.*** Şuşada M.P.Vaqifin məqbərəsinin açılışında Heydər Əliyev başda olmaqla, respublikanın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimləri iştirak etmişdir. – ***18 iyul 1982-ci il.*** Heydər Əliyev Şuşada Vaqifin poeziya bayramında ailə üzvləri ilə birgə iştirak etmişdir. – ***22 mart 1988-ci il.*** Ermənistandan gələn qaçqınlar Şuşada sanatoriyalarda, internatlarda və istirahət evlərində yerləşdirilmişdi. – ***14 may 1988-ci il.*** Şuşada 5 min nəfərlik mitinq keçirildi. – ***16 may 1988-ci il.*** Şuşada keçirilmiş 14 may tarixli mitinqə cavab olaraq hadisələri daha da qızışdırmaq üçün 15 may tarixində Xankəndində bir qrup gənc döyülərək maşına yığılıb Şuşaya göndərilmişdir. – ***28 may 1988-ci il.*** V.N.Safonovun kəşfiyyatçıları ermənilərin planı barədə Şuşaya xəbər çatdırdılar. – ***11 iyun 1988-ci il.*** Şuşa Şəhər İcraiyyə Komitəsinin sədri Vaqif Hüseynov DQMV-ni ləğv etmək təklifini irəli sürdü. – ***6 iyul 1988-ci il.*** Ermənistandan gəlmiş qaçqınları Şuşadan yenidən Ermənistana qaytarmaq cəhdləri edildi. – ***7 iyul 1988-ci il.*** Ə.Vəzirov qaçqınların Şuşadan çıxarılmasını tələb etdi. – ***9 iyul 1988-ci il.*** Ə.X.Vəzirovun tapşırığı ilə bir neçə gün ərzində DQMV-dəki, o cümlədən Şuşadakı 4 minə yaxın qaçqından 3 mindən çoxu respublikanın digər rayonlarına göndərildi. – ***İyun 1990-cı il.*** Erməni terror qrupları Laçın, Kəlbəcər, Şuşa və digər Azərbaycan rayonlarında, Ermənistanla sərhəd yaylaqlarda vəhşiliklər törədərək çobanları və naxırçıları öldürüb, 10 minə yaxın mal-qaranı Ermənistana keçirtdi. – ***9 yanvar 1991-ci il.*** Laçın-Şuşa yolunda 5 nəfərlik erməni terror qrupu "Molodyoj Azerbaycana" qəzetinin müxbiri Salatın Əsgərovanı, podpolkovnik S.M.Larionovu və mayor İ.U.İvanovu güllələmişdi. – ***23 avqust 1991-ci il.*** Terrorçular Şuşa-Cəmilli yolunda avtobusu güllləyə tutması nəticəsində 4 nəfər həlak olmuş, 13 nəfər yaralanmışdır. **III. DQMV-nin ləğvindən sonrakı dövr:** ***26 dekabr 1991-ci il.*** Şuşa şəhər sakini Abbasov

Süleyman öz ailəsi ilə Bakıdan Şuşaya gedərkən erməni terror dəstəsinin yüksək gərginlikli elektrik dirəyinin partlatdıqlarının şahidi olmuşdular. Terrorçular bütün ailəni və onları Şuşaya aparan sürücünü vəhşicəsinə qətlə yetirmişdir. – ***8 may 1992-ci il.*** Ermənilər 289 $km^2$ sahəsi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonunu işğal etmişdir [S. 60-61, 70-72, 82, 86, 101, 108-115, 117-119, 132, 134, 136, 140, 147]

**45. Mahmudov, Y.** Qarabağ: Real tarix, faktlar, sənədlər / Y.M.Mahmudov, K.K.Şükürov; baş məsləhətçi E.Ə.Mahmudov; məsləhətçilər A.Ə.Paşayev, F.H.Vahabov; naşir: B.H.Axundov; İngilis dilinə tərcümə edən: B.İ.Hacıyev. – Bakı: Təhsil. – 2005. – *Mətn paralel olaraq Azərbaycan və ingilis dillərindədir.*

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi yığcam şəkildə şərh olunur. Müəlliflər ilk mənbələrə əsaslanaraq əsərdə ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın tarixini bütöv halda əks etdirmişlər.

Kitabda Şuşa qəzasının tarixindən, ermənilərin bu əraziyə köçürülməsindən, ermənilərin işğalçılıq müharibəsindən və Şuşa şəhərindəki tarixi və memarlıq abidələrinin fotoşəkilləri də verilmişdir.

***Kitabın içindəkilərdən:*** Çarizmin Qarabağda idarəçilik rejimi. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi; Qarabağ Azərbaycan Xalq Cümhuriyyəti dövründə; Qarabağın digər torpaqlarının inzibati bölgüsündə dəyişikliklər; Dağlıq Qarabağ 1923-1980-ci illərdə; Ermənistanın və Dağlıq Qarabağ erməni separatçılarının Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün işğalçılıq müharibəsi. – ***Şuşa***: Qaynaq; Gəncə qapısı. 1750-ci il. Şuşa şəhəri; Pənah xanın qəsri. Şuşa şəhəri; Şuşa. 1878-ci il. B.Yermakovun çəkdiyi fotoşəkil; Şuşa şəhəri dağıdıldıqdan sonra; Pənah xanın kitabxanasının interyeri; Pənah xan məscidinin interyeri; Qala divarı; Dünyanın ən nadir çiçəyi olan Xarı bülbül çiçəyi. Şuşa; Görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin (1717-1797) evinin qarşısında büstü. Şuşa şəhəri; Molla Pənah Vaqifin məzarı; Vaqifin poeziya günləri. 1982-ci il iyul. Şuşa şəhəri; Molla Pənah Vaqifin məqbərəsi; Saatlı məscidi. XVIII əsr. Şuşa şəhəri; Saatlı məscidinin daxilindən görünüş; Hacıqulların malikanəsi. XVIII əsr. Şuşa şəhəri; İbrahim xanın qızı, Azərbaycan şairəsi Ağabəyim ağanın (1781-1831) qəsri; Qarabağlı Mehdiqulu xanın qızı, məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvanın (1832-1897) mülkü. Şuşa şəhəri; Natəvanın büstü. 1982-ci il. Şuşa şəhəri; Natəvanın Şuşanın işğal edən erməni separatçı – terrorçu vandalları tərəfindən güllənbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində İncəsənət Muzeyindədir; Şuşa şəhər əhalisinin suya olan tələbatını ödəmək məqsədi ilə Xan qızı Natəvanın çəkdirdiyi bulaq. 1850-ci il. Şuşa şəhəri; Xurşidbanu Natəvanın tikdirdiyi karvansara; Aşağı Gövhər ağa məscidi. 1874-1875-ci illər. Şuşa şəhəri; Görkəmli Azərbaycan şairi Mir Möhsün Nəvvabın (1833-1918)

qəbri. Şuşa şəhəri. Cıdır düzü qəbiristanlığı; Yuxarı Gövhər ağa məscidi. Şuşa şəhəri; Gövhər ağa məscidi. Şimal fəsadı. Həyət; Gövhər ağa məscidi; Gövhər ağa məscidi. V.Vereşşaginin (1842-1904) çəkdiyi şəkil; Kilsə. 1888-ci il. Şuşa şəhəri; Hərbi xadim, artilleriya general-leytenantı, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun (1857-1931) ev kompleksi; Çöl qala məhəlləsi. Şuşa şəhəri; Bəstəkar Zülfüqar Hacıbəylinin (1884-1950) evi. Şuşa şəhəri; Görkəmli Azərbaycan xanəndəsi Xan Şuşinskinin (1901-1979) evi. Şuşa şəhəri; Xan evi. Şuşa şəhəri; Qarabağ Fövqəladə komissiyasının sədri, Azərbaycan SSR Xalq Ədliyyə komissarı və prokuroru olmuş Hüsü Hacıyevin (1897-1931) evi. Şuşa şəhəri; Topxana meşəsi. Şuşa şəhəri; Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı zamanı dağıdılmış Şuşa şəhərindən görünüşlər; Üzeyir Hacıbəylinin 100 illiyi münasibəti ilə keçirilən mərasim. 1985-ci il. Şuşa şəhəri; Dünya şöhrətli Azərbaycan bəstəkarı. Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin (1885-1948) ev muzeyi. XIX əsr. Şuşa şəhəri; Üzeyir Hacıbəylinin heykəli. Üzeyir Hacıbəylinin Şuşanı işğal edən erməni separatçı – terrorçu vandalları tərəfindən güllələbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində İncəsənət Muzeyindədir; Azərbaycan vokal sənətinin banisi, dünya şöhrətli müğənni Bülbülün (1897-1961) ev muzeyi. Şuşa şəhəri; Bülbülün büstü; Bülbülün Şuşanı işğal edən erməni separatçı – terror vandalları tərəfindən güllələbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində İncəsənət Muzeyindədir: ***fotoşəkillər*** [S. 32, 46-52, 67-70, 86-94, 147-176].

**46. Məmmədov, N.** Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə / Nazim Məmmədov; Red.: Q. Ə. Hacıyev. – Bakı: [s. n.], 2005. – 170 s.

***Kitabın içindəkilər:*** Ön söz əvəzi. – **I Fəsil:** Şuşanın qısa tarixi-coğrafi icmalı. – **II Fəsil:** Şuşanın sənayesi (1900-1917). – **III Fəsil:** Şuşanın kənd təsərrüfatı (1900-1917). – **IV Fəsil:** 1900-1917-ci ildə Şuşa mədəniyyəti. – **V Fəsil**: Şuşada mövcud quruluşa qarşı çıxışlar. Şuşa tətilləri (1900-1917). – **VI Fəsil:** Çarizmin Şuşada milli qırğın siyasəti (1905-1906); Son söz əvəzi.

**47. Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir:** IV elmi konfransın materialları, 7 may 2004-cü il / red.: Tehran Vəliyev; Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. – Bakı: Nağıl evi, 2005. – 86 s.

***Kitabın içindəkilər: Polad Bülbüloğlu.*** Giriş sözü. – ***Nizami Bəhmənov.*** Biz torpaqlarımıza yenidən qayıdacağıq. – ***Elmira Süleymanova.*** Şuşa bizi gözləyir. – ***Xəqani Məmmədov.*** Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması və onun zərərli nəticələri. – ***Sevda Süleymanova.*** XX əsrin əvvəllərində Qarabağ bölgəsində milli oyanış. – ***Əli Məmmədov.*** Qarabağ ana torpaq, Şuşa doğma şəhər. – ***Elmira Qasımova.*** Şuşa rəssamlıq məktəbinin dünəni və bu günü. – ***Xuraman İsmayılova*:** Musiqi beşiyimiz – Şuşa!. – ***Vasif Adıgözəlov*:** Şuşanı xilas edin. – ***Yunis Hüseynov*:** Ermənilərin vətəni hara olub? – ***Əli Həsənov:***

Torpaqlarımızın azad olunması uğrunda hamımız çalışmalıyıq. – ***Zahid Abbasov.*** Son söz.

**2006**

**48. Qarabağnamələr: Tarixi-Cədidi-Qarabağ** / Mirzə Rəhim Fəna. – Əhvalati-Qarabağ / Baharlı. - **Şuşa şəhərinin tarixi** / Həsən İxfa Əlizadə. – Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları... / Həsənəli Qaradaği. – Gülüstani-İrəm / Abbasqulu Ağa Bakıxanov / tərt. ed. N. Axundov; elmi red. A. Fərzəliyev. – Bakı: Şərq–Qərb. – 2006. – K. 3. – 248 s.

"Qarabağnamələr"in üçüncü kitabında Azərbaycanın XX əsr salnaməçiləri Mirzə Rəhim Fənanın, Baharlının, Həsənəli Qaradağinin, Abbasqulu ağa Bakıxanovun Qarabağ haqqında tarixi, ədəbi-bədii, publisistik oçerkləri toplanmışdır.

Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi" əsəri müəllifin Respublika Ədəbiyyat və İncəsənət Arxivində şəxsi fondunda saxlanılan əlyazması əsasında çapa hazırlanmışdır.

***Kitabın içindəkilərdən:*** **Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi:** Müqəddimə; Pənah xan kim idi?; Pənah xanın inşa etdiyi ilk qalalar və şəhərlər; Kartli-Kaxetiya çarı II İraklinin Pənah xanı başqa xanlarla birlikdə həbs etməsi; Fətəli xan Əfşarın Şuşa üzərinə hücumu, məğlubiyyəti və hiylə işlətməsi; İbrahimxəlil xanın hakimiyyəti dövrü; İbarhim xanın Balakəndən Şuşaya gəlməsi və başqa hadisələr; İbrahimxəlil xanın öldürülməsi. İranla müharibənin genişlənməsi; Şuşanın mədəni həyatı və tarixi abidələri.

**49. Məmmədov, N.** Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941 – dekabr 1950-ci illərdə / Nazim Məmmədov; elmi red. Q. Ə. Hacıyev; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu. – Bakı: [Elm], 2006. – 182 s.

Kitab Azərbaycanın ayrılmaz tərkib hissəsi olan DQMV-nin 1941-ci ilin iyun ayından 1950-ci ilin dekabr ayınadək olan mürəkkəb, ziddiyyətli və əhəmiyyətli tarixi dövrünü əhatə edir. Kitab 6 fəsildən ibarətdir.

Kitabda DQMV-nin mərkəzi şəhəri kimi Şuşanın kənd təsərrüfatından, mədəni quruculuğundan da bəhs olunmuşdur.

**50. Müharibə və tarixi-mədəniyyət abidələrimiz**: **işğal olunmuş Azərbaycan ərazilərində xanəgahlar, pirlər, ziyarətgahlar** / Heydər Əliyev fondu; Azərbaycan Milli Elmlər Akademiyası İnsan Hüquqları İnstitutu. – Bakı: [s.n.], 2006. – 63 s.

Kitabda işğal altında qalan Azərbaycan ərazilərindəki tarixi-mədəniyyət abidələrinin, ziyarətgahların, məscid və məbədlərin yalnız bir hissəsinin adları toplanmışdır.

***Kitabın içindəkilərdən:*** Şuşa rayonu; Ermənilər tərəfindən dağıdılmış tarixi memarlıq abidələri; Düşmən tapdağı altında qalan ziyarətgahlar; Nəzir

kahası; Həzrət Abbas şəfa ocağı; Saqqaxana və Pirgah; Seyid Mirfəsih türbəsi [S.17–22].

**51. Şuşa şəhərinə həsr edilmiş konfrans və sərginin materiallar, 7 may 2005-ci il** / red. Zahid Abbasov. – Bakı: [Qərənfil], 2006. – 59 s.

***Kitabın içindəkilər: Polad Bülbüloğlu.*** [konfransın açılışında giriş nitqi]. – ***Nizami Bəhmənov***: Şuşalıların sosial durumu; ***Çıxışlar*** / Əli Həsənov, Araz Əzimov. – **Kamran İmanov.** Torpaqlarımız da azad olunub qorunacaq, əqli mülkiyyətimiz də qorunub saxlanacaq.– **Maarif Teymur.** ... Şuşa, ay Şuşa!.... – **Qasım Hacıyev.** Şuşa Azərbaycan tarixinin incisidir, Şuşanın işğalından 13 il keçir. – ***Çıxışlar*** / Adil Baxşəliyev, Fərhad Bədəlbəyli; Zahid Abbasov.

## 2007

**52. Hacıyeva, Z.** Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu / Zemfira Hacıyeva; red.: Y.Mahmudov, T.Mustafazadə. – Bakı: Təhsil, 2007. – 254 s.

Monoqrafiyada Azərbaycan xanlıqları arasında özünəməxsus yeri olan Qarabağ xanlığının sosial-iqtisadi tarixi, dövlət quruluşu, şəhər təsərrüfatı, aqrar münasibətlər və elmi ictimaiyyətə az məlum olan bir sıra digər məsələlər işıqlandırılmışdır.

***Kitabın içindəkilərdən:*** **III Fəsil. Şəhər həyatı: sənətkarlıq və ticarət:** 1. Xanlığın mərkəzi – Şuşa şəhəri; 2. Sənətkarlıq və kustar sənayesi; 3. Ticarət; 4. Şəhərdə sosial münasibətlər [S.132-176].

**53. Hüseynov, Y.** "Qarabağnamələr" Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi / Yunis Hüseynov; elmi red. Y. M. Mahmudov; rəy.: K. K. Şükürov, Z. H. Bayramov; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu. – Bakı: [Elm], 2007. – 216 s.

Kitabda Qarabağ xanlığının yaranması, onun ictimai quruluşu, sərhədləri, əhalisinin milli və sosial tərkibi, iqtisadiyyatı, Osmanlı Türkiyəsi və Gürcüstanla əlaqələri və xanlığın ərazisinin XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Qacarlarla Rusiya imperiyası arasında beynəlxalq çəkişmə meydanına çevrilməsi məsələləri şərh edilir.

Kitabda Qarabağ xanlığının mərkəzi şəhəri kimi Şuşa şəhərindən də geniş bəhs olunmuşdur.

**54. Qarabağ: dünən, bu gün fotoşəkillərdə:** [foto-albom] / baş red. və baş məsləhətçi B. Baratoğlu; məsləhətçilər A. Ə. Əhmədzadə, R. M. Əliyev. – Bakı: [İndiqo], [2007]. – 200 s. – *Mətn paralel Azərbaycan, rus, ingilis və fars dillərindədir.*

***Kitabın içindəkilərdən: Şuşa:*** Şuşa şəhəri. 1989-cu il; Xələfli körpüsü. Xələfli kəndi; Gəncə qapısı. 1750-ci il; Qala divarları. 1750-ci il; "Qarabağ" mehmanxanası. Şuşa şəhəri; Tarix təkrarlanır: Ermənilərin dağıdıb yandırdıqları

Şuşa şəhəri. 1918-1920-ci illər; Şuşanın ermənilər tərəfindən dağıdılmış məhəlləri. 1918-1920-ci illər; Görkəmli Azərbaycan xanəndəsi Xan Şuşiniskinin evi (1901-1979); Yuxarı Gövhər ağa məscidi. Şuşa şəhəri. 1762-ci il; Alban kilsəsi bərpa zamanı. Şuşa şəhəri. 1984-cü il; Aşağı Gövhər ağa məscidi. Şuşa şəhəri. 1874-1875-ci illər; Mərdinli məhəlləsi. Yaşayış evi. Şuşa şəhəri; Dahi Azərbaycan bəstəkarı, şərqdə operanın banisi Üzeyir Hacıbəyovun heykəli. (1885-1948); Görkəmli şair. Publisist Mir Möhsün Nəvvabın qəbirüstü abidəsi. (1883-1918). (Yunesko tərəfindən maliyyələşib); Görkəmli Azərbaycan şairi. Qarabağ xanının vəziri Molla Pənah Vaqifin (1717-1797) qəbri; Molla Pənah Vaqifin evinin qarşısındakı büstü; Vaqifin poeziya günləri. Şuşa şəhəri. 1982-ci il; Molla Pənah Vaqifin məqbərəsi; Molla Pənah Vaqifin məqbərəsi; Dahi Azərbaycan müğənnisi Bülbülün (1897-1961) ev-muzeyi və büstü. Şuşa şəhəri; Qarabağ xanının qızı, Azərbaycan şairi Xurşidbanu Natəvanın evi. 1832-ci il. Şuşa şəhəri; Bazarbaşı. Xurşidbanu Natəvanın karvansarası; "Xan qızı bulağı". Xurşidbanu Natəvanın portreti; General Səməd bəy Mehmandarovun (1857-1931) malikanəsi; Ermənilərin məhv etdikləri Topxana meşəsi; Cıdır düzü. Beynəlxalq "Xarı bülbül" musiqi festivalı; Natəvanın büstü. Şuşa şəhəri; Ermənilərin gülləbaran etdiyi Şuşa abidələrindən Bülbülün, Natəvanın və Üzeyir Hacıbəyovun büstləri. İncəsənət muzeyi. Bakı şəhəri; Azərbaycan mədəniyyətinin beşiyi – Şuşa şəhəri; Saatlı məscidi. Şuşa şəhəri; Molla Pənah Vaqifin adına poeziya evi; Zöhrabbəyovların malikanəsi. Ümumi görünüşü. – ***Şuşa şəhəri. 2006–cı il:*** "Erməni vandalizmi" seriyasından; Ermənistanın gələcək arzuları: Dağıdılmış şəhərlər, məscidlər, yeni tikilmiş bir neçə kilsə; Saatlı məscidi və ətraf binalar "erməni bərpasından" sonra; "Erməni vandalizmi" seriyasından; Dağıdılmış Şuşa məscidləri; "Erməni vandalizmi" seriyasından; Mədəniyyət evi işğaldan əvvəl; Həmin Mədəniyyət evi, 1992-ci ildən sonra; Mədəniyyət evi. 2006-cı il; "Erməni vandalizmi" seriyasından; Şuşa şəhəri yaxınlığında erməni qəbiristanlığı; İşğal olunmuş ərazilərdə ermənilər tərəfindən dağıdılmış Azərbaycan qəbiristanlıqları; İşğal olunmuş ərazilərdə ermənilər tərəfindən dağıdılmış Azərbaycan qəbiristanlıqları [S.12–56].

**55. Mahmudov, Y.** Qarabağ: real tarix, faktlar, sənədlər / Yaqub Mahmudov, Kərim Şükürov; [baş məsləhətçi. E. Mahmudov; naşir. B. Axundov; rus dilinə tərc. ed. S. Zeynalova, İ. Niftəliyev]; Azərbaycan Milli Elmlər Akademiyası, Tarix İnstitutu. – Bakı: Təhsil, 2007. – 375, [3] s. – *Mətn paralel Azərbaycan və rus dillərindədir.*

Kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi yığcam şəkildə şərh olunur. Müəlliflər ilk mənbələrə əsaslanaraq əsərdə ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın tarixini bütöv halda əks etdirmişlər.

Kitabda Şuşa qəzasının tarixindən, ermənilərin bu əraziyə köçürülməsindən, ermənilərin işğalçılıq müharibəsindən və Şuşa şəhərindəki tarixi – memarlıq abidələrinin fotoşəkilləri də verilmişdir.

***Kitabın içindəkindən:*** Çarizmin Qarabağda idarəçilik rejmi. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi; Qarabağ Azərbaycan Xalq Cümhuriyyəti dövründə; Qarabağın digər torpaqlarının inzibati bölgüsündə dəyişikliklər; Dağlıq Qarabağ 1923–1980-ci illərdə; Ermənistanın və Dağlıq Qarabağ erməni separatçılarının Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün işğalçılıq müharibəsi. – ***Şuşa***: Qaynaq; Gəncə qapısı. 1750-ci il. Şuşa şəhəri; Pənah xanın qəsri. Şuşa şəhəri; Şuşa. 1878-ci il. B. Yermakovun çəkdiyi fotoşəkil; Şuşa şəhəri dağıdıldıqdan sonra; Pənah xanın kitabxanasının interyeri; Pənah xan məscidinin interyeri; Qala divarı; Dünyanın ən nadir çiçəyi olan Xarı bülbül çiçəyi. Şuşa; Görkəmli Azərbaycan şairi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin (1717-1797) evinin qarşısında büstü. Şuşa şəhəri; Molla Pənah Vaqifin məzarı; Vaqifin poeziya günləri. 1982-ci il iyul. Şuşa şəhəri; Molla Pənah Vaqifin məqbərəsi; Saatlı məscidi. XVIII əsr. Şuşa şəhəri; Saatlı məscidinin daxilindən görünüş; Hacıqulların malikanəsi. XVIII əsr. Şuşa şəhəri; İbrahim xanın qızı, Azərbaycan şairəsi Ağabəyim ağanın (1781-1831) qəsri; Qarabağlı Mehdiqulu xanın qızı, məşhur Azərbaycan şairəsi Xurşidbanu Natəvanın (1832-1897) mülkü. Şuşa şəhəri; Natəvanın büstü. 1982-ci il. Şuşa şəhəri; Natəvanın Şuşanın işğal edən erməni separatçı-terrorçu vandalları tərəfindən güllləbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində - İncəsənət Muzeyindədir; Şuşa şəhər əhalisinin suya olan tələbatını ödəmək məqsədi ilə Xan qızı Natəvanın çəkdirdiyi bulaq. 1850-ci il. Şuşa şəhəri; Xurşidbanu Natəvanın tikdirdiyi karvansara; Aşağı Gövhər ağa məscidi. 1874-1875-ci illər. Şuşa şəhəri; Görkəmli Azərbaycan şairi Mir Möhsün Nəvvabın (1833-1918) qəbri. Şuşa şəhəri. Cıdır düzü qəbiristanlığı; Yuxarı Gövhər ağa məscidi. Şuşa şəhəri; Gövhər ağa məscidi. Şimal fəsadı. Həyət; Gövhər ağa məscidi; Gövhər ağa məscidi. V. Vereşşaginin (1842-1904) çəkdiyi şəkil; Kilsə. 1888-ci il. Şuşa şəhəri; Hərbi xadim, artilleriya general-leytenantı, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun (1857-1931) ev kompleksi; Çöl qala məhəlləsi. Şuşa şəhəri; Bəstəkar Zülfüqar Hacıbəylinin (1884-1950) evi. Şuşa şəhəri; Görkəmli Azərbaycan xanəndəsi Xan Şuşinskinin (1901-1979) evi. Şuşa şəhəri; Xan evi. Şuşa şəhəri; Qarabağ Fövqəladə komissiyasının sədri, Azərbaycan SSR Xalq Ədliyyə komissarı və prokuroru olmuş Hüsü Hacıyevin (1897-1931) evi. Şuşa şəhəri; Topxana meşəsi. Şuşa şəhəri; Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı zamanı dağıdılmış Şuşa şəhərindən görünüşlər; Üzeyir Hacıbəylinin 100 illiyi münasibəti ilə keçirilən mərasim. 1985-ci il. Şuşa şəhəri; Dünya şöhrətli Azərbaycan bəstəkarı. Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin (1885-1948) ev muzeyi. XIX əsr. Şuşa şəhəri;

Üzeyir Hacıbəylinin heykəli. Üzeyir Hacıbəylinin Şuşanı işğal edən erməni separatçı-terrorçu vandalları tərəfindən güllələbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində İncəsənət Muzeyindədir; Azərbaycan vokal sənətinin banisi, dünya şöhrətli müğənni Bülbülün (1897-1961) ev muzeyi. Şuşa şəhəri; Bülbülün büstü; Bülbülün Şuşanı işğal edən erməni separatçı – terror vandalları tərəfindən güllələbaran edilmiş büstü. Büst hazırda Bakı şəhərində İncəsənət Muzeyindədir: ***fotoşəkillər*** [32, 46-52, 67-70, 86-94, 147-176].

**56. Sabiroğlu, H.** Qarabağ söhbətləri / Hikmət Sabiroğlu; red. A. Qaraçənli, A. Qaçayoğlu. – Bakı: Qanun, 2007. – 164 s.

Kitabda müəllifin Şuşa ilə bağlı xatirələri, Qarabağ müharibəsi, milli azadlıq hərəkatı illərində şahidi olduğu hadisələri əks etdirən silsilə məqalələr toplanmışdır.

***Kitabın içindəkilər:*** Müəllifdən; Mənim gördüyüm yanvar; Fevral, 1988; Balalar; Adamlar; Niyyət; Bizim sinif; Mahnılar; Almatıya məktub; Güllələr, toylar, şəkillər; Sərçələr qaldı; Sevgilər; Yol üstündə; Yay yağışı; Qərib gecələr.

**57. Şuşa həsrəti**: Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M. F. Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. N. Alışova, A. Abdullayeva; red. G. Səfərəliyeva. – Bakı: [s. n.], 2007. – 39 s.

Kitabda Şuşa Azərbaycanın tarixi və mədəniyyəti, Şuşa bugün də yaşayır, əsas tarixi hadisələr, Şuşanın işğalının 15-ci ildönümü ilə əlaqədar kitabxanalarda həyata keçirilən tədbirlər və s. haqqında verilmişdir.

***Kitabın içindəkilər:*** Şuşa həsrəti; Şuşa Azərbaycanın tarix və mədəniyyət incisidir; Şuşa bugün də yaşayır; Əsas tarixi hadisələr; Şuşa haqqında deyilənlər; Şuşanın işğalının 15-ci ildönümü ilə əlaqədar kitabxanalarda həyata keçirilən tədbirlər.

## 2008

**58. Eyvazov, B.** Şuşa kurortu / Bahadur Eyvazov; red. Ə. Balayev. – Bakı: Nurlan, 2008. – 72 s.

Kitabda Şuşa, onun təbii müalicə sərvətləri haqqında geniş və dərin məlumat verilir.

***Kitabın içindəkilər: Ədil Eyvazov.*** Ön söz; Bahadur Əsgər oğlu Eyvazov; Şuşa kurortu. Bir neçə söz; Kurort sağlamlıq ocağıdır; Şuşanın coğrafi vəziyyəti və bəzi tarixi məlumat; Şuşanın torpağı, bitkiləri və heyvanlar aləmi; Şuşanın iqlim xüsusiyyətləri; Şuşanın balneoloji imkanları; Şuşanın müalicə xassələri; Şuşa kurortunda müalicə oluna bilən və oluna bilməyən xəstəliklər; Şuşa kurortunun müalicə təsirinin mexanizmi; Şuşa kurortunun inkişaf etdirməyin növbəti vəzifələri və prespektivləri; Son söz əvəzi: Bu gecə yuxuma girmişdir Şuşa.

**59. Qarabağ – irsimizin əbədi yaddaşı** / [ideya və ön sözün müəl. Ə. Qarayev; red. və sözardının müəl. T. Vəliyev; fotolar. H. Hüseynzadə və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. – Bakı: [s.n.], 2008. – 379, [5] s. – *Mətn paralel olaraq Azərbaycan və ingilis dillərindədir.*

Kitab yaddaşımızı oyatmağa, Qarabağ mədəni irsinin bizim üçün misilsiz əhəmiyyətə malik olduğunu yenidən, daha dərindən dərk etməyə, mədəni irsimizin inkişaf pillələrini yada salmağa xidmət edir. Bu kitab xalqımızın çoxəsrlik tarixinin ən ağır mərhələlərində onu məhv olmaqdan xilas etmiş bədii və mədəni irsimizin zəngin xəzinəsinə həsr olunmuş silsilə nəşrdir.

***Kitabın içindəkilərdən:*** Şuşa; Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu; Şuşa qalası. Gəncə qapısı. 1750-1757-ci illər; Qala divarları. Fraqmentlər; Qala divarları; Gəncə qapısı. Fraqment; Şuşa. Qala divarları. 1750-1757-ci illər; Pənah xanın qəsri. XVIII əsr; Qara Böyük xanımım qəsri. XVIII əsrin II yarısı; İbrahim Xəlil xanın qəsri (Qala divarlar). XVIII əsr; Zöhrabbəyovların mülkü. XIX əsr; Dahi Azərbaycan bəstəkarı, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun evi. XIX əsr; Məşhur xanəndə Xan Şuşinskinin ev muzeyi. XIX əsr; Azərbaycan vokal sənətinin banisi Bülbülün ev-muzeyi. XIX əsr; Bülbülün ev-muzeyinin küçə tərəfdən görünüşü. XIX əsr; Hacı Quluların mülkü. XIX əsr; Xan qızı Xurşidbanu Natəvanın evi. XIX əsr; Bəstəkar Zülfüqar Hacıbəyovun mülkü. XIX əsrin axırı – XX əsrin əvvəlləri; Mehmandarovların mülkü. XVIII əsr; Xan sarayı. XVIII əsr; Şuşa məhəllələri; Əsəd bəyin mülkü. XVIII əsr; Realnı məktəbi. XIX əsr; Xurşidbanu Natəvanın tikdirdiyi karvansara. XIX əsr; Molla Pənah Vaqifin məqbərəsi. 1982-ci il; Memarlar A.V. Salamzadə və E.İ. Kanukov; Üzeyir Hacıbəyovun heykəli. XIX əsr. Heykəltəraş Əhməd Tsalixov; Mir Möhsün Nəvvabın qəbri. 1957-ci il. Heykəltəraş Tokay Məmmədov; Yuxarı Gövhər ağa məscidi. XVIII-XIX əsrlər. Memar Kərbəlayi Səfixan; Yuxarı Gövhər ağa məscidi. XVIII–XIX əsrlər. Memar Kərbəlayi Səfixan; Saatlı məscidi. XVIII əsr. Memar Kərbəlayi Səfixan; Saatlı məscidinin planı; Saatlı məscidinin aşağıdan görünüşü; Saatlı məscidi. Memar Kərbalayi Səfixan; Aşağı Gövhər ağa məscidi. XVIII–XIX əsrlər. Memar Kərbəlayi Səfixan; Aşağı Gövhər ağa məscidinin planı; Mamayı məscidinin ümumi görünüşü. XVIII əsr; Hacı Yusifli məscidi. Şuşada ən qədim məscidlərdən biri. XVIII əsr; Türbə. XVIII əsr; Mehmandarovların məscidi. XVIII əsr; Meydan bulağı. XVIII əsr; Məhəllə bulağı. XVIII əsr; Təzə Məhəllə bulağı. XIX əsr; Xanlıq bulağı. XIX əsrin ortaları; İsa bulağı. XX əsrin birinci yarısı; Məhəllə bulağı. XIX əsr; Çuxur məhəllə bulağı. XIX əsr; Mineral su qalereyası. XX əsrin ortaları. Memar C. A. Qiyası; Saatlı məscidi. Tavan. XVIII əsr; Saatlı məscidinin interyeri. XVIII əsr; Saatlı məscidi. Şəbəkə. XVIII əsr; Saatlı məscidi. Günbəz. Daxili görünüşü; "Şirin Su" hamamının interyeri. XIX əsr; Səfi bəyin evinin divar və tavan bəzəkləri. XIX əsr; Mehmandarovların evinin divar

bəzəkləri. XIX əsr. Rəssam: Usta Qəmbər Qarabağlı; Cıdır Düzünün panoraması; Şuşanın Panoraması; Əsgəran Qalasının görünüşü. XVIII əsr: *fotoşəkillər* [13-78].

**60. Məmmədov, N.** Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923-1991) / Nazim Məmmədov; elmi red. Q. Ə. Hacıyev; AMEA, A. A. Bakıxanov ad. Tarix İn-tu. – Bakı: Təhsil, 2008. – 566, [3] s.

Kitabda Azərbaycanın DQMV-nin 1923-1991-ci illər tarixi tədqiq edilmişdir. Burada həmçinin ermənilərin müxtəlif dövrlərdə Azərbaycana qarşı torpaq iddiaları və təcavüzü, 1970-1985-ci illərdə Azərbaycanda idarəçiliyin gücləndirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi şərh olunur.

Kitabda DQMV-nin inzibati mərkəzi kimi Şuşa şəhərindən də geniş bəhs olunmuşdur.

**2009**

**61. Aslanlı, A.** Qarabağ problemi: tarixi, mahiyyəti, həll prosesi / Araz Aslanlı; elmi red. N. Cəfərsoy; [ön söz H. Əlibəyli]; Azərb. Resp. Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Araz Tədqiqatlar Mərkəzi. – Bakı: [s.n.], 2009. – 112 s.

Kitabda Şuşanın erməni silahlı qüvvələri tərəfindən işğalının tarixi köklərindən, işğal altındakı Şuşanın vəziyyətindən və problemin həllinin əsas prinsiplərindən də bəhs olunmuşdur.

**62. Çingizoğlu, Ə.** Şuşa şəhəri (1750-1850) / Ənvər Çingizoğlu; red. V. Quliyev. – Bakı: Şuşa, 2009. – 247, [1] s.

Kitab Azərbaycan xalqının mədəniyyətində mühüm rol oynamış Şuşa şəhərinin və Şuşa camaatının yüzillik (1750-1850) yaşam yolundan bəhs edir. XVIII-XIX yüzilliklərdə Qarabağda, onun paytaxtı Şuşa şəhərində baş vermiş önəmli hadisələr, şəhərin iqtisadi, mədəni həyatı sənədlərlə, şahidlərin bilgisi ilə qələmə alınıb.

***Kitabın içindəkilər:*** Giriş; Şuşa şəhərinin yaranması; Şuşa şəhəri Rus-iİan savaşları dönəmində; Şəhərin məscidləri; Yuxarı Gövhər ağa məscidi; Saatlı məscidi; Ruhanilər; Molla və seyidlər; Şəhərin məhəllələri; Şəhərin darvazaları; Şəhərin karvansaraları; Şəhərin hamamları; Şəhərin əhalisi; Təbriz məhəlləsi; Cəfərqulu ağanın rəiyyətləri; Əzət bəyimin rəiyyətləri; Süleyman ağanın rəiyyətləri; Böyük xanın rəiyyətləri; Kapitan Rüstəm bəyin rəiyyətləri; Dəmirçihəsənli mahalı; Mamaylı-Dəmirçihəsənli; Kapitan Uğurlu bəyin rəiyyətləri; Kapitan Ağalar bəyin rəiyyətləri; Qurd Gürcüstan – Kəbirli; Qurd Dördlər – Kəbirli; Qurd Camalxan – Qaradağlı – Kəbirli; Dəmirçilər; Axund Molla Bağırın rəiyyətləri; Kapitan İsmayıl bəyin rəiyyətləri; Poruçik Gülməmməd bəyin rəiyyətləri; Vəli bəyin rəiyyətləri; İyirmidörd mahalı – Saatlı; Kərim bəy

Məmmədəli bəy oğlunun rəiyyətləri; Əhməd ağa divanbəyinin rəiyyətləri; Hacı Yusifin rəiyyətləri; Fətəli ağanın rəiyyətləri; Xocavəndlilər; Xancan ağanın rəiyyətləri; Şükür ağanın rəiyyətləri; Xanxanım ağanın rəiyyətləri; Əhməd xan və Bikə ağanın rəiyyətləri; Kapitan Mirzəli bəy Kəbirlinin rəiyyətləri; Məhəmmədəli bəy divanbəyi Kəbirlinin rəiyyətləri; Hacı bəyin rəiyyətləri; Cavanşir – Dizaq mahalı; Yağləvənd; Hacılı; Qaraxanbəyli; Seyid Mahmudlu; Merdinli; Qərbənd; Dədəli; Zəngar; Cavanşir mahalı; Otuziki mahalı; Məmməd bəy qalabəyinin rəiyyətləri; Behbud bəy Sarıcalının rəiyyətləri; Əli bəy Sarıcanlının rəiyyətləri; Səfərli bəy Kəbirlinin rəiyyətləri; Məmməd yüzbaşı Köçərlinin rəiyyətləri; Nəcəfəli bəyin rəiyyətləri; Kəngərlilər; Məhəlləsizlər, kasıblar, dullar, yetimlər; Müxtəlif ağaların rəiyyətləri; Mülkədarlar; Molla və seyidlər; Mehdiqulu xanın kargüzarları; Mehdiqulu xanın nökərləri; Mehdiqulu xanın xidmətçiləri; Mehdiqulu xanın nökərləri; Gəncüm ağa Xandəmirovun rəiyyətləri; Mirzə Məhəmməd Mirzə Haqverdi bəy oğlunun rəiyyətləri; Polkovnik Fərəculla bəy Uğurlu bəy oğlunun və qardaşlarının rəiyyətləri; Kapitan İsmayıl bəy Murad bəy oğlunun rəiyyətləri; Kapitan Mirzəli bəy Hacı Hüseynəli bəy oğlunun rəiyyətləri; Kapitan Gülməmməd bəyin rəiyyətləri; Həsən bəy Əhməd ağa oğlunun rəiyyətləri; Qəhrəman bəy Məmmədəli bəy oğlunun rəiyyətləri; Cəfər bəy Hacı bəy oğlunun rəiyyətləri; Poruçik Səfərəli bəy Əli bəy oğlunun rəiyyətləri; Mirzə Yusif bəy Cəfər bəy oğlunun rəiyyətləri; Vəli bəy Murad bəy oğlunun rəiyyətləri; Kazım bəy Əlimərdan bəy oğlunun rəiyyətləri; Məhəmmədqulu bəy Hacı Mustafa bəy oğlunun rəiyyətləri; Hüseyn bəy Qəhrəman bəy oğlunun rəiyyətləri; Nəcəfəli bəyin rəiyyətləri; Mirzəcamal Məmmədxan bəy oğlunun rəiyyətləri; Abdulla bəy Məmməd bəy oğlunun rəiyyətləri; Həsən bəy Pəri oğlunun rəiyyətləri; İsmayıl bəy Məmməd bəy oğlunun rəiyyətləri; Əsəd bəy Mayor Rüstəm bəy oğlunun rəiyyətləri; Nəcəfqulu bəy Hacı Bəylər bəy oğlunun rəiyyətləri; Paraporşik Əli bəy Məşədi Tanrıverdi oğlunun rəiyyətləri; Məhəmməd ağa Hacı Yusif oğlunun rəiyyətləri; Əsri bəy Pirimovun rəiyyətləri; Nəsir bəy Ağarza bəy oğlunun rəiyyətləri; Praporşik Hüseyn bəy Əhməd bəy oğlunun rəiyyətləri; Nuru bəy Murad bəy oğlunun rəiyyətləri; Mülkədarlar; Mehdiqulu xan İbrahimxəlil xan oğlunun rəiyyətləri; Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlunun rəiyyətləri; Əhməd xan İbrahimxəlil xan oğlunun rəiyyətləri; Məmmədqasım ağa İbrahimxəlil xan oğlunun rəiyyətləri; Süleyman ağa İbrahimxəlil xan oğlunun rəiyyətləri; Fətəli ağa İbrahimxəlil xan oğlunun rəiyyətləri; Əzəd bəyim İbrahimxəlil xan qızının rəiyyətləri; Gövhər ağa İbrahimxəlil xan qızının rəiyyətləri; Xancan ağa Məmmədhəsən ağa oğlunun rəiyyətləri; Şükür ağa Məhəmmədhəsən ağa oğlunun rəiyyətləri; Böyük xan Məmmədhəsən ağa oğlunun rəiyyətləri; Nəcəfqulu bəy Əsəd bəy oğlunun rəiyyətləri; Məmməd bəy Behbud bəy oğlunun rəiyyət-

ləri; Abdulla bəy Ağalar bəy oğlunun rəiyyətləri; Eyvazxan bəy Məmmədxan bəy oğlunun rəiyyətləri; Qara bəy Səhliyalı bəy oğlunun rəiyyətləri; Əli bəy Mirzəli bəy oğlunun rəiyyətləri; Səfərəli bəy Əli bəy oğlunun rəiyyətləri; Sadıq bəy Əli bəy oğlunun rəiyyətləri; Qəhrəman bəy Məmmədəli bəy oğlunun rəiyyətləri; Hüseyn bəy Qəhrəman bəy oğlunun rəiyyətləri; Hacı bəy Mehrəli bəy oğlunun rəiyyətləri; Qəhrəman bəy Fərzəli bəy oğlunun rəiyyətləri; Əsəd bəy Rüstəm bəy oğlunun rəiyyətləri; Nəcəfqulu bəy Hacı Bəylər bəy oğlunun rəiyyətləri; Fərəculla bəy Uğurlu bəy oğlunun rəiyyətləri; Rüstəm bəy Gülməmməd bəy oğlunun rəiyyətləri; Mirzə Camal bəy Məhəmmədxan bəy oğlunun rəiyyətləri; Abdulla bəy Məhəmməd bəy oğlunun rəiyyətləri; Kərim bəy Məhəmmədəli bəy oğlunun rəiyyətləri; Səlim bəy İsmayıl bəy oğlunun rəiyyətləri; Hüseyn bəy Əhməd bəy oğlunun rəiyyətləri; Mirzə Əbdülkərim bəy Mirzə Haqverdi oğlunun rəiyyətləri; Mirzə Əbdülqasım Mirzə Əli oğlunun rəiyyətləri; Məhəmməd ağa Hacı Yusif oğlunun rəiyyətləri; Həsən bəy Əhməd ağa oğlunun rəiyyətləri; Vəli bəy Murad bəy oğlunun rəiyyətləri; Nuru bəy Murad bəy oğlunun rəiyyətləri; İsmayıl bəy Murad bəy oğlunun rəiyyətləri; Hacı bəy Məmmədqulu bəy oğlunun rəiyyətləri; Nəsir bəy Ağarza bəy oğlunun rəiyyətləri; Nəcəfəli bəy və Mirzə Hüseyn bəyin rəiyyətləri; Əli bəy Məşədi Tanrıverdi oğlunun rəiyyətləri; Kazım bəy Əlimərdan bəy oğlunun rəiyyətləri; Mirzə Həşim bəy Mirzə Yusif bəy oğlunun rəiyyətləri; Həsən bəy Məmmədqasım bəy oğlunun rəiyyətləri; Mirzə Sadıq Mirzə Cəfər ağa oğlunun rəiyyətləri; Mirzə Rüstəm bəy Mirzə Xanməmməd oğlunun rəiyyətləri; İmamqulu ağa Rəhim xan oğlunun rəiyyətləri; Mirzə Adıgözəl bəy Haqverdi bəy oğlunun rəiyyətləri; Mirzə Allahqulu bəy Oruc ağa oğlunun rəiyyətləri; Adıgözəl bəy Dərvişqulu bəy oğlunun rəiyyətləri; Məmmədqulu xanın rəiyyətləri; Həsən bəy Pərioğlunun rəiyyətləri; Zeynalabdin bəyin rəiyyətləri; Gəncüm ağa Xandəmirovun rəiyyətləri; Əsribaba Doluxanovun rəiyyətləri; Mülkadarlar; Dövlət rəiyyətləri; Məaflar; Xanzadələr; Bəyzadələr; Məaflar; Şəhərin seyidləri; Təbrizli məhəlləsi; Merdinli məhəlləsi; Mamaylı məhəlləsi; Qurdlar-Mehdibəyli məhəlləsi; Qurdlar (Qurd-Dördlər və Qurd-Gürcüstan) məhəlləsi; Keştazlı, Saatlı və Köçərli məhəllələri; Gəlmələr məhəlləsi; Məhləsizlər; Vəli bəy Hüseyn bəy oğlunun rəiyyətləri; Səfiqulu bəy Fərzəli bəy oğlunun rəiyyətləri; Bəylər bəy Zeynal bəy oğlunun rəiyyətlər.

**63. Erməni vəhşilikləri (1905-1906) - (1918-1920)**: / QAT; red. hey. Akif Nağı [və b.]. – Bakı: [s.n.], 2009. – 46, [2] s. – *Mətn paralel Azərbaycan, ingilis və rus dillərindədir.*

Kitabda 1905-1906 və 1918-1920-ci illərdə Qarabağda, eləcə də Şuşada baş vermiş erməni vəhşilikləri və ermənilərin azərbaycanlılara qarşı nifrətini və vəhşiliklərini əks etdirən çoxsaylı faktlardan yalnız bir neçəsi haqqında söhbət açılır.

**64. Əroğlu, Ə.** Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası: bədii, tarixi publisistika / Əlisahib Əroğlu; red. N. Tapdıqoğlu. – Bakı: Təknur, 2009. – 199, [1]s.

Kitabda erməni-daşnak faşizminin son bir əsrdə Azərbaycan türlərinə qarşı yürütdükləri soyqırımı və etnik təmizləmə siyasətinin terror şiddətindən, onun amansızlığından bəhs olunur.

***Kitabın içindəkilərdən:*** **Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası:** ***1903-1904-cü illər.*** Tarixi araşdırmalar göstərir ki, daşnak terrorçusu Vazgenin rəhbərlik etdiyi terror qrupu bu illər ərzində Şuşa şəhərində və onun ətraf kəndlərində say hesabı ilə 500 nəfərdən çox Azərbaycan türkünü qətlə yetirmişdir. – ***11 may 1905-ci il.*** Daşnak Həmzadın başçılıq etdiyi terror qrupu Daşaltı çayının sağ döşündəki dəyirmana basqın etmişlər, Şuşa şəhər sakini dəyirmançı Xaspolatı, həyat yoldaşı Gülayəni və altıaylıq körpələri Məhəmmədi qətlə yetirmişdir. – ***17 iyul 1905-ci il.*** Daşnak terrorçuları Şuşada azərbaycanlılar yaşayan evləri top atəşinə tutmuşlar, evlərini dağıdıb yandırmışlar və 30-a yaxın Azərbaycan türkünü qətlə yetirmişdir. – ***8 avqust 1905-ci il.*** Daşnak terrorçuları Cənubi Azərbaycandan gəlib Şuşa şəhərində binagüzarlıq edən, Realnı məktəbin təmirində işləyən əliyalın 17 türk fəhləsini qətlə yetirmişdir; Vəng kəndində yuva qurmuş 300 nəfərdən ibarət daşnak terrorçuları Şuşadan Gəncəyə gedən atlı araba karvanına basqın etmişlər, karvanı talayıb, çalvadarları öldürür, sayı qeydə alınmayan çoxlu sayda Azərbaycan türkünü qətlə yetirir. – ***16-21 avqust 1905-ci il.*** Daşnak terrorçuları tərəfindən Şuşa şəhərində 60 nəfər Azərbaycan türkü qətlə yetirilmişdir. – ***21-26 avqust 1905-ci il.*** Daşnak terrorçuları Şuşa qəzasında ikinci dəfə türk qətliamına başlamışlar, dörd kəndi yerlə-yeksan etmişlər və dinc, əliyalın əhalidən 100 nəfəri qətlə yetirmişlər. – ***27 dekabr 1905-ci il.*** Daşnak terror qrupları Şuşa qəzasının Malıbəyli kəndinə basqın etmişlər, kənddə qətliam törətmişlər, qadın və uşaqları tikə-tikə doğramışlar. – ***11 dekabr 1918-ci il.*** Daşnak terror qrupu Şuşa yaxınlığından keçən poçt yolunu kəsib, poçtu dağıdıb, soyğunçuluq edib, poçtda işləyən azərbaycanlıları qətlə yetirmişlər. – ***19 iyun 1919-cu il***: Şuşanın Xanbağı kəndinə basqın edən daşnak terrorçuları iki nəfər günahsız Azərbaycan türkünü qətlə yetirmişlər. **–** ***22 mart 1920-ci il.*** Novruz bayramı ərəfəsində 200 nəfərlik daşnak terror qruplaşması Şuşa şəhərinə yeridilmiş, Şuşada yaşayan ermənilər də onlara qoşulurlar və həmin gün şəhərin azərbaycanlılar yaşayan hissələrinə başdan-başa basqınlar etmişlər. – ***24 aprel 1965-ci il.*** Şuşa şəhərində Azərbaycan televiziyasının ötürücü qülləsini partlatmağa cəhd göstərən daşnak terrorçusu cinayət başında yaxalanmışdır. – ***1 avqust 1988-ci il.*** Şuşa-Ağdam yolunda sərnişin avtobusu daşnak təxribatçıları tərəfindən daş-qalaq edilmişdir. – ***28 avqust 1988-ci il.*** Daş və dəmir parçaları ilə silahlanmış daşnak təxribatçıları pusqu quraraq Şuşa-Ağdam yolunda

hərəkət edən və sərnişinləri azərbaycanlılardan ibarət 9 avtobusa hücum təşkil etmişlər. – ***15 noyabr 1988-ci il***. Daşnak terrorçuları Şuşanın gözü sayılan, tarixi Topxana meşəsini od vurub yandırıb, ekoloji talan törətmişlər. – ***13 avqust 1989-cu il.*** Daşnak terrorçuları tərəfindən Şuşa şəhərinin su kəməri partladılmışdır. – ***17 avqust 1989-cu il***. Şuşa-Ağdam marşrut avtobusu daşnak terrorçularının basqınına məruz qalmış və altı nəfər sərnişin ağır dərəcəli bədən xəsarəti almışdır. – ***28 avqust 1989-cu il.*** Şuşadan Ağdam istiqamətində hərəkət edən 9 avtobus və bir yük maşını daşnak terrorçularının hücumuna məruz qalmış, 12 nəfər dinc sərnişin müxtəlif dərəcəli xəsarət almışdır. – ***7 oktyabr 1989-cu il.*** Daşnak terrorçusu Abramyan Artur Artaşoviç Şuşa şəhərini Ağdam şosse yolu ilə birləşdirən Xəlfəliçay üzərindəki Ağa körpüsünü partlatmışdır. – ***6 noyabr 1989-cu il.*** Daşnak terrorçuları tərəfindən Qarqar çayı üzərindəki körpü dağıdılmış, Ağdam-Şuşa yolundakı körpü isə partladılmış və Şuşa ilə nəqliyyat əlaqəsi tam kəsilmişdir. – ***20 noyabr 1989-cu il.*** Daşnak terrorçuları Kərkicahan-Şuşa yolunu iki yerdən partladıb dağıtmışlar. – ***2 yanvar 1990-cı il***. Ağdamdan Şuşaya gedən 5 sərnişin avtobusu daşnak terrorçularının hücumuna məruz qalmışdır. – ***5 yanvar 1990-cı il***. Daşnak terrorçuları tərəfindən Şuşaya su verən boru kəməri təkrar partladılmışdır. – ***13 fevral 1990-cı il***. Daşnak Armen Mixayloviç Avanesyanın başçılıq etdiyi terror qrupu Yevlax-Laçın avtomagistralının 105-ci km-də Şuşa-Bakı istiqamətində hərəkət edən avtobusu partladılmışdır. – ***14 avqust 1990-cı il.*** Daşnak terrorçuları Şuşa-Ağdam avtobusunu daş-qalaq etmişlər. – ***25 avqust 1990-cı il.*** Daşnakların "Amaras" adlandırdıqları terror qrupu Şuşanın Göytəpə yaşayış məntəqəsinə basqın etmişlər. – ***18 noyabr 1990-cı il***. Daşnak terrorçuları Şuşanın Göytala kəndinə basqın etmişlər. – ***30 noyabr 1990-cı il.*** Daşnak terrorçuları polis işçilərini Şuşaya aparan avtobusa Ağa körpüsündə basqın etmişlər. – ***02 dekabr 1990-cı il***. Müxətər və Şüşükənddə yuva qurmuş daşnak terror qrupu avtomat və pulemyotlardan Şuşa şəhərini aramsız atəşə tutub, Şuşa rayon mərkəzi xəstəxanasına və Qaya başı deyilən əraziyə yaxın yaşayış evlərinə ciddi zərər yetirmişlər. – ***3 dekabr 1990-cı il***. Daşnak terror qrupu Şuşa şəhərinin Göytala kəndinə 3 top mərmisi atmışlar. – ***12 dekabr 1990-cı il***. Ağdamdan Şuşaya gedən 13-58 AQYA nömrə nişanlı avtobus Xan bağı yaxınlığında daşnak terrorçuları tərəfindən gülləyə tutulmuşdur. – ***04 mart 1991-ci il***. Daşnak terrorçuları tərəfindən Nəbilərdən Şuşaya gələn içməli su kəməri Daşaltı yaxınlığında yenidən partladılmışdır. – ***15 mart 1991-ci il.*** Şüşükənd, Müxətər, Daşaltı kəndlərində özlərinə isti yuva tapmış daşnak terrorçuları Şuşa şəhərini avtomat və pulemyotlardan aramsız şəkildə atəşə tuturlar. – ***11 aprel 1991-ci il***. Daşnak terrorçuları tərəfindən Ağdamdan Şuşaya sərnişin aparan mülki vertolyot Şuşa səmasında vurulmuşdur. – ***17 aprel 1991-ci il.*** Daşnak terrorçuları Şuşa şəhərini avtomat və pulemyotlarla yanaşı, həm də top mərmiləri və

raketlərlə intensiv şəkildə atəşə tutmuşlar. – ***23 aprel 1991-ci il***. Daşnak terrorçuları tərəfindən səhər radələrindən Şuşa şəhəri top və raket atəşinə tutulmuş, Yuxarı Gövhər ağa məscidinin damı və 22 ev dağıdılmışdır. – ***27 sentyabr 1991-ci il***. Daşnak terrorçuları Topxanadan Şuşanı atəşə tutumuşlar və ardınca şəhər ətrafına həmlə etmişlər. – ***2 dekabr 1991-ci il.*** Daşnak terrorçuları Şuşa şəhərinə həmlə edib, 8 ev dağıtmışlar. –***7 dekabr 1991-ci il***. Əsgəran rayonunun Müxətər və Şüşükəndlərində lövbər salan daşnak terrorçuları tərəfindən Şuşa şəhəri artilleriya atəşinə tutulmuşdur. – ***13 dekabr 1991-ci il***. Əsgəran rayonunun Müxətər və Şüşükənddə məskən salan daşnak terrorçuları tərəfindən Şuşa şəhəri raket və top atəşinə tutulmuşdur. – ***14 dekabr 1991-ci il.*** Daşnak terrorçuları Şuşa şəhərini raket, top, qumbaraatan, avtomat və pulemyotlardan atəşə tutmuşlar. – ***14 dekabr 1991-ci il***. Daşnak terrorçuları Şuşanın Malıbəyli və Quşçular kəndlərini raket atəşinə tutub, 5 evi dağıtmışlar. – ***4 yanvar 1992-ci il***. Daşnak terrorçuları Şuşa şəhərini atəşə tutmuşlar. – ***18 yanvar 1992-ci il***. Daşaltı kəndində məskən salan daşnak terrorçuları Şuşaya gələn elektrik xəttini və su kəmərini yenə də partlatmışlar. – ***18-21 yanvar 1992-ci il.*** Daşnak terrorçuları tərəfindən gecələr Şuşa şəhəri ən müasir silahlardan atəşə tutulurdu. – ***05 fevral 1992-ci il.*** Daşnak terror birləşmələri Şuşa şəhərinə həmlələr edirdilər. – ***19 fevral 1992-ci il***. Daşnak terrorçuları Şuşa şəhərini top, raket, tank və BMP-lərdən atəşə tutub, 35 ev dağıtmışlar. – ***12 mart 1992-ci il***: Daşnak terrorçuları səhər saat $4^{00}$-dan Şuşa şəhərini artilleriya atəşinə tutub, on bir nəfər dinc şəhər sakini qətlə yetirib, otuz nəfərdən çoxunu isə yaralamışlar. – ***14 mart 1992-ci il***. Daşnak terror qrupu Şuşa şəhərini artilleriya atəşinə tutur, iyirmiyə yaxın evi dağıdıb, 15 ev tamamilə yandırmışlar. – ***14 aprel 1992-ci il.*** Daşnak terrorçuları Şuşa şəhərini artilleriya atəşinə tutub, səkkiz nəfəri yaralamışlar. – ***30 aprel 1992-ci il***. Daşnak terrorçuları Şuşanın Hacı talası deyilən strateji mövqeyinə həmlə etmələri nəticəsində dörd nəfər həlak olmuş, on iki nəfər yaralanmışdır. –***8 may 1992-ci il***. Daşnak terror birləşmələri həddi-hüdudu olmayan xəyanətlərdən bəhrələnərək üç istiqamətdən 20.000 nəfərlik əhalisi olan Şuşa şəhərinə həmlə edib, 155 nəfər həlak qətlə yetirib, 167 nəfər isə yaralamışlar. Yüzlərlə maddi-mədəniyyət abidəsi olan, Azərbaycanın tacı, Qarabağın incisi Şuşa şəhəri işğala məruz qoymuşlar [S. 9- 107].

**65. Fəna, M. R.** 1905-ci il hadisəsi / Mirzə Rəhim Fəna; elmi red. M. Nağısoylu; tərt. ed. A. Hacıyeva; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu. – Bakı: Nurlan, 2009. – 252 s. – *Mətn paralel Azərbaycan və fars dillərindədir.*

Kitabda XIX əsr Qarabağ ədəbi mühitinin görkəmli nümayəndələrindən olan M.R. Fənanın ötən yüzilliyin əvvəllər-ində şahidi olduğu erməni millətçilərinin törətdiyi qırğınlardan bəhs olunur.

***Kitabın içindəkilərdən:*** Şuşa şəhərində müharibənin başlanması; Şuşa

şəhərinin mühasirəsinin şərhi; Çərşənbə, on yeddi avqust, müharibənin ikinci günü; Qala davası və sülhdən sonra Şuşa mahalında baş verən hadisələr; Sülhdən sonra Şuşa mahalındakı hadisələr [S.11-12; 28-31; 39-44; 81-90].

**66. Məmmədov, N.** Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal: XX yüzillik / Nazim Məmmədov; red. Q. Ə. Hacıyev; rəyçi S.Ə. Məmmədov [və b.]; AMEA, A.A. Bakıxanov ad. Tarix İn-tu. – Bakı: Təhsil, 2009. – 272 s.

Monoqrafiyada Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları. “Böyük Ermənistan” yaratmaq məqsədilə xalqımızın başına gətirilən müsibətlər, xüsusilə XX yüzilliyin 80-ci illərin sonları 90-cı illərin əvvəllərində erməni vəhşilikləri tarixi mənbələrə əsasən təhlil edilmişdir.

Kitabda ermənilərin Şuşa ərazisinə köçürülməsindən, separatizm meyillərindən, onların həyata keçirdikləri kütləvi qırğın siyasətindən və Şuşanın erməni silahlı birləşmələri tərəfindən işğal edilməsindən də bəhs olunmuşdur.

